YENİ MÜSAVAT
N 100 (6421) 10 may 2016




# Elxan Süleymanov II Dünya müharibəsi veteranları ilə görüşdü

**Şamaxının millət vəkili Elxan Süleymanov Şamaxı şəhərindəki qərargahında bu rayondan olan II Dünya müharibəsinin iştirakçıları ilə görüşüb.**

Millət vəkilinin Şamaxıdakı səlahiyyətli nümayəndəsi Dəyanət Musayevin verdiyi məlumata görə, görüşdə müharibə veteranları - Mirağa Əhlimanov, Qədir Qədirov, Ağaməsim Mütəllimov, Eyni Qəribov, Qiyasəddin Babayev və Şamaxı rayon Əmək və Müharibə Veteranları Şurasının sədri Ağarza Bayramov iştirak edib.

Veteranları Qələbə Günü münasibəti ilə təbrik edən millət vəkili faşizm üzərində qələbənin əhəmiyyətini vurğulayıb və onun qazanılmasında azərbaycanlıların, o cümlədən də şamaxılıların da böyük xidmətləri olduğunu qeyd edib.

Elxan Süleymanov bu gün də Azərbaycan Milli Ordusunda xidmət edən gənclərin İkinci Dünya müharibəsi qəhrəmanlarının şücaətini döyüş meydanında davam etdirdiklərini bildirib.

Görüşün sonunda veteranlara hədiyyələr təqdim edilib və xatirə şəkli çəkdirilib.

# "Mənə meymun deməyiniz bəs deyil, hələ bir..."

## Polad Bülbüloğlu "Yeni Müsavat"a niyə qəzəbləndi?

**Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunun son zamanlardakı, xüsusilə də aprel döyüşlərindən sonrakı diplomatik fəaliyyəti bir çoxları tərəfindən təqdir olunur.**

Xüsusilə də onun Azərbaycana qarşı informasiya müharibəsi aparan Rusiya mətbuatına müsahibələrindən diplomatiyanın qoyduğu sərhədləri də aşaraq, əsl vətəndaşlıq mövqeyi sərgiləməsi, Ermənistanın işğalçı siyasətinə qarşı barışmaz münasibəti, hətta lazım gələrsə, özünün də əlinə silah alıb, Qarabağ uğrunda döyüşəcəyini açıq şəkildə Rusiya paytaxtından bəyan etməsi qürurvericidir.

Lakin dünən onun "Yeni Müsavat" qəzeti haqqında dedikləri bizi çox pəjmürdə elədi. Şuşanın işğalının 24-cü ildönümü, Qarabağ ətrafında baş verənlər, həmçinin Rusiya prezidenti Vladimir Putinin Bakıya nəzərdə tutulan və son anda ertələnən səfəri barədə suallarımıza cavab almaq üçün cənab səfirə telefon açdıq.

Zəngimselindəki özünün "Gəl, ey səhər" mahnısına bir az qulaq asdıqdan sonra Polad müəllim telefonu açdı, ancaq özümüzü təqdim edəndən sonra qeyzləndi: "Bir misal var, "Mənə meymun deməyiniz, bəs deyil, hələ bir..." İndi siz mənə nə üzlə zəng edibsiniz?"

Əslində peşəsinə görə soyuqqanlı olmalı olan diplomatın hərarətinə səbrlə qulaq asandan sonra onun nəzərinə çatdırdıq ki, bu cür fikirləri səsləndirməsi düzgün deyil. Çünki heç zaman onu təhqir etməmişik, qərəzli münasibət bəsləməmişik, yalnız tənqidi məqamlar ola bilər ki, bu da normaldır. Hətta onun Qarabağla bağlı tutduğu prinsipial mövqeni nümunə olaraq təqdim edirik.

"Buna görə sağ olun" deyən səfir ardınca yenə qeyzləndi: ""Yeni Müsavat"ın mənim haqqımda səsləndirdiyi şər-böhtan dolu yazılara görə mən bu qəzetə heç nə danışmaq istəmirəm".

Yenə də saygımızı əsirgəmədik, ancaq bir qeydimiz də oldu: "Polad müəllim, siz ermənilərlə danışmaq, barışmaq üçün hətta Qarabağa gedə bilirsiniz, ancaq bizim qəzetə danışmırsınız? Çox təəssüf..."

Hörmətli səfir isə sualımıza cavab vermək əvəzinə, telefonunu qapatdı.

❑ **Cavid TURAN**

## Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Mehman Əliyevə qardaşının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Azərbaycan iki şəhidini torpağa tapşırdı

**Azərbaycan ordusunun kapitanı şəhid Nəcməddin Savalanov dəfn edilib. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, 31 yaşlı (1985-ci il təvəllüdlü) kapitan Nəcməddin Akif oğlu Savalanov bu gün doğulduğu İmişli rayonunun Göbəktala kənd məzarlığında dəfn edilib.**





Dəfn mərasimində Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, İmişli Rayon İcra Hakimiyyətinin rəsmiləri, kənd sakinləri, həmçinin şəhid zabitin qulluq etdiyi hərbi hissənin əsgər və zabitləri, rayon ictimaiyyəti iştirak edib. Şəhid zabit yaylım atəşləri altında son mənzilə yola salınıb. Şəhidin tabutuna bükülmüş Azərbaycan bayrağı şəhidin qardaşına təqdim edilib. Həmçinin kapitana təltif olunan "İgidliyə görə" medal şəhidin oğul övladının sinəsinə taxılıb.

Dəfn mərasimində şəhid kapitanın azyaşlı qızının atasının nəşi önündə bayraq haqda şeir söyləməsi Nəcməddin Savalanovu son mənzilə uğurlayanları göz yaşlarına boğub...

Xatırladaq ki, aprelin 2-də təmas xəttində gedən döyüşlərdə ayağından və çiynindən ağır güllə yarası alan kapitan Nəcməddin Savalanov mayın 8-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında dünyasını dəyişib. Şəhid kapitan 3 övlad atası olub. İkisi qız, biri oğlan.

Azərbaycan daha bir şəhidini son mənzilə yola salıb.

Gün.az-ın məlumatına görə, şəhid Əli İntiqam oğlu Heydərov mayın 9-da doğulub boya-başa çatdığı Abşeron rayonu, Qobu qəsəbə qəbiristanlığında dəfn olunub.

İzdihamlı dəfn mərasimində minlərlə insan iştirak edib.

Qeyd edək ki, Ə. Heydərov 1997-ci ilin may ayının 10-da Qobu qəsəbəsində fəhlə ailəsində anadan olub.

Hərbi xidməti başa vurmağa 6 ayı qalan Ə. Heydərov dünən, mayın 8-də cəbhənin Tərtər istiqamətində qəhrəmancasına şəhid olub.

Ə.Heydərovgil ailədə 4 uşaq olublar, onun iki qardaşı və bir bacısı var.

Şəhidimizin sabah 19 yaşı tamam olacaqdı...

Ə.Heydərov şəhid olmazdan bir neçə gün əvvəl ailəsi ilə sonuncu dəfə danışanda isə "deyəsən, mən də şəhid olacağam" deyibmiş...

**Şəhidlərimizə Allah rəhmət etsin!**

# Bu gün Fəxri Xiyabana gedən küçə və prospektlər bağlanacaq

**Mayın 10-da Fəxri Xiyaban istiqamətində avtomobillərin hərəkəti məhdudlaşdırılacaq.**

Bu barədə «Trend»ə Daxili İşlər Nazirliyi (DİN) Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovnik-leytenantı Vaqif Əsədov deyib.

Onun sözlərinə görə, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar, Fəxri Xiyaban istiqamətində avtomobillərin istiqaməti müvəqqəti olaraq dəyişdiriləcək: "Ziyarətçilərin təhlükəsizliyini təmin etmək məqsədilə əhalinin və avtomobil sahiblərinin nəzərinə çatdırırıq ki, paytaxtın Parlament prospektinin Mehdi Hüseyn küçəsi ilə kəsişməsindən, Hüseyn Cavid prospekti və Mikayıl Müşviq küçəsi ilə kəsişməsindən və digər kəsişən küçə və prospektlərdən avtomobillərin hərəkətinə məhdudiyyət qoyulacaq".

V.Əsədov bildirib ki, səhər 08:00-dan etibarən ziyarət başa çatana qədər bu istiqamətdə avtomobillərdən imtina edilməsi və ictimai nəqliyyat vasitələrindən istifadəyə üstünlük verilməsi tövsiyə olunur: "Ziyarətə qatılmaq istəyənlər isə ictimai nəqliyyatdan istifadə edə bilərlər".




# Ermənilərin Şuşada misli görünməmiş vandallığı

**Ermənivandallarının Şuşada vəhşiliklərinin sübutu olan daha bir foto yayılıb. Fotoda Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun xaraba qalmış ev muzeyi əks olunub. ANS-in Qızıl Fondunda yer almış kadrlar da bunu sübut edir.**

Şuşa şəhəri 8 may 1992-ci ildə Ermənistan ordusu tərəfindən işğal olunub. Şuşaya hücumdan bir neçə saat öncə Tehranda İran prezidentinin vasitəçiliyi ilə Ermənistan və Azərbaycanın dövlət başçıları Qarabağ münaqişəsinin dinc yolla həllinə dair saziş imzalamışdı. Şuşanın işğalı zamanı 200 nəfər şəhid, 150 nəfər əlil olub, 552 körpə yetim qalıb, 22 minə yaxın insan qaçqın düşüb. Bundan başqa, 200 tarixi abidə, 2 sanatoriya, görkəmli sənət adamlarının ev muzeyləri, 70 yerlik turist bazası, 1200 yerlik internat və s. dağıdılıb.

Şuşada rəsmən qeydə alınmış 170 memarlıq və 160 incəsənət abidəsi var idi. Şəhərdə Mirzə Salah bəy Zöhrabbəyovun yaşayış evi, Xan qızı Natəvanın evi, Üzeyir Hacıbəyovun ev-muzeyi (Şuşa) və Vaqif türbəsi yerləşirdi. Qarabağ müharibəsi zamanı Hacı Qululların mülkü, Şuşa Realnı məktəbi, Süleyman Vəzirovun evi və s. ermənilər tərəfindən məhv edilib.



Raul Qarayev

# "Azərbaycan əsgəri Lələtəpədən geri çəkilməyəcək"

**Apreldə Ermənistan silahlı qüvvələrindən azad edilən Lələtəpə və Talış kəndi ətrafındakı yüksəkliklər ciddi qorunur.**

ANS TV-nin məlumatına görə, bu yüksəkliklərin azad edilməsində iştirak edən hərbçilərimiz yüksəkliklərin müdafiəsini Azərbaycan əsgəri üçün bir vəzifə borcu olmaqla yanaşı həm də şərəf məsələsi olduğunu söyləyirlər.

"Azərbaycan əsgəri son damla qanına qədər savaşsa da o mövqelərdən geri çəkilməz. Düşmən də heç vaxt cəsarət edib o mövqelərə girməyə cəhd göstərməz. Çünki onun üçün böyük bir təlefata gətirib çıxara bilər. Düşmən özü də bunu çox yaxşı dərk edir. Baxmayaraq ki, gedişatda buna bir neçə dəfə cəhd göstərdi. Bir neçə əməliyyat keçirsə də bu alınmadı. Özü də orda yersiz itkilərinin şahidi oldu", - deyə zabit Raul Qarayev bildirib.

# Lavrov və Kerri Dağlıq Qarabağ münaqişəsini müzakirə etdilər

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov ABŞ dövlət katibi Con Kerri ilə Dağlıq Qarabağ münaqişəsini müzakirə edib. "Report"un məlumatına görə, bu barədə Rusiyanın Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.**

Məlumata görə, telefon danışığında münaqişənin sülh yolu ilə həlli vasitələri, habelə ATƏT-in Minsk Qrupunun növbəti mərhələdə atacağı addımlar diqqət mərkəzində olub.

# Bakıda mənzildə iki meyit aşkarlandı

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə, Bakı şəhəri, Nəsimi rayonunda 1968-ci il təvəllüdlü Qurbanov Şahin Məmmədəli oğlu və 1978-ci il təvəllüdlü Ağayeva Gülnurə Oktay qızının mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub.**

APA-nın FHN-in saytına istinadən verdiyi məlumata görə, dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedicilər hadisə yerinə cəlb olunaraq mənzilə baxış keçirib və vətəndaşları huşsuz vəziyyətdə aşkar ediblər.

Hadisə yerinə çağırılmış Təcili Tibbi Yardım Stansiyasının həkimləri tərəfindən aparılmış ilkin müayinə zamanı vətəndaşların vəfat etdiyi müəyyən olunub. Əməliyyat saat 15:20-də başa çatıb.

YENİ MÜSAVAT
N 100 (6421) 10 may 2016

**Mayın 9-da İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 71-ci ildönümü münasibətilə Bakıda təntənəli mərasim keçirilib. Mərasimdə prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Böyük Vətən müharibəsi veteranları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Prezident müharibə veteranları və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə görüşüb, Qələbə günü münasibətilə onları təbrik edib.**



# Bakıda faşizm üzərində qələbənin 71-ci ildönümü qeyd edildi

## Prezident veteranlara 500 min manat ayırdı; **İlham Əliyev:** "Aprel döyüşləri ordumuzun gücünü, xalqımızın həmrəyliyini nümayiş etdirdi"







Ölkə başçısı ölkəmizin qələbənin əldə olunmasında həm ön, həm də arxa cəbhədə böyük rol oynadığını bildirib. Müharibə veteranlarına bir daha öz hörmətini ifadə edən prezident İlham Əliyev builki qələbə gününün xüsusi ruh yüksəkliyi ilə qeyd olunduğunu vurğulayıb. Ötən ayın əvvəlində qoşunların təmas xəttində təxribat törətməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə qarşı ordumuzun uğurlu əks-hücum əməliyyatı keçirdiyini və bu əməliyyat nəticəsində bəzi ərazilərin işğaldan azad edildiyini xatırladan dövlət başçısı bu qələbə münasibətilə təbriklərini çatdırıb və deyib ki, aprel döyüşləri bir daha ordumuzun gücünü, xalqımızın həmrəyliyini nümayiş etdirib.

Azərbaycanın öz tarixi keçmişinə böyük hörmətlə yanaşdığını bildirən dövlətimizin başçısı müstəqilliyimizin ilk illərində 9 May - Qələbə Gününün qeyd olunmadığını təəssüflə bildirib və yalnız Heydər Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra bu bayramın xalqa qaytarıldığını vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəblərindən danışan prezident İlham Əliyev bu münaqişənin süni şəkildə ortaya atılmış bir təxribat olduğunu və bu gün də Azərbaycanın bu təxribatın acı nəticələrini yaşadığını söyləyib. Vurğulayıb ki, Heydər Əliyev müstəqilliyin ilk illərində hakimiyyətdə olsaydı, Dağlıq Qarabağ münaqişəsi baş verməzdi. Dövlət başçısı 1990-cı illərin əvvəlində Azərbaycanda hökm sürən siyasi və iqtisadi böhrandan danışıb, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın dinamik inkişafa qədəm qoyduğunu, Azərbaycançılıq məfkurəsinin formalaşdığını, çoxmillətli, çoxkonfessiyalı cəmiyyətin inkişaf prosesinin başlandığını qeyd edib. Bildirib ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir.

"Azərbaycanda xalq-iqtidar birliyi inkişafımızın əsas şərti, sabitliyin əsas amilidir", - deyən prezident İlham Əliyev siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının, onun qayğılarının dayandığını bildirib. Qeyd edib ki, dünyadakı iqtisadi böhrana baxmayaraq, Azərbaycan bütün məsələlərin öhdəsindən uğurla gəlir. Çünki iqtisadiyyatın şaxələndirilməsi sahəsində siyasət davam edir, "Əsrin müqaviləsi" çərçivəsində aparılan işlər iqtisadi gücümüzü artırır. Neft-qaz sahəsində reallaşdırılan irimiqyaslı layihələri xatırladan dövlətimizin başçısı hazırda bu istiqamətdə əlavə tədbirlərin görüldüyünü qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan və fəaliyyətinə böyük rəğbətlə yanaşılan Azərbaycan mötəbər beynəlxalq tədbirlərin təşkilatçısıdır. Bu isə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına xidmət edir. Çünki ölkəmizə gələn qonaqlar bu həqiqətləri öz gözləri ilə görürlər. Gələcək inkişafla bağlı dəqiq proqramların mövcud olduğunu deyən prezident indi əsas məsələnin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli olduğunu söyləyib və bildirib ki, bu istiqamətdə biz öz mövqeyimizi danışıqlar prosesində gücləndiririk. Ermənistanla Azərbaycan arasında fərqin göz qabağında olduğunu bildirən dövlətimizin başçısı aprel döyüşlərinin Azərbaycan ordusunun istənilən vəzifəni icra etməyə qadir olduğunu bir daha nümayiş etdirdiyini vurğulayıb. Dövlət başçısı çıxışını "Bu yol Heydər Əliyev yoludur. Biz bu yolla gedirik, gedəcəyik və Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik" fikri ilə yekunlaşdırıb.

Həmçinin ötən gün prezident müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı Veteranlar Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 500 000 manat ayrılıb. Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etməsi tapşırılıb.

Qələbənin 71-ci ildönümü ilə əlaqədar paytaxtın müxtəlif yerlərində Azərbaycan Silahlı Qüvvələrinin orkestrlərinin çıxışları da təşkil olunub. Orkestrlər saat 17:00-dan 19:00-dək müəyyənləşdirilmiş 6 yerdə - Dənizkənarı Milli Parkda, Azadlıq meydanı ilə üzbəüz fəvvarənin qarşısında, Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev adına parkda, Zərifə Əliyeva adına parkda, Zabitlər parkında və Fəvvarələr meydanında çıxış ediblər...

Azərbaycan faşizm üzərində qələbəyə sanballı töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanov, Sovet İttifaqı qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Hüseynbala Əliyev, Qafur Məmmədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çoxunun adı bu müharibənin tarixinə qızıl hərflərlə yazılıb.

İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb.

Xatırladaq ki, faşizm üzərində qələbə Azərbaycanda da rəsmi dövlət bayramı kimi qeyd olunur.

❑ Xalidə GƏRAY



# Düşmənin Mingəçevir SES hədəsinə ekspertdən tutarlı cavab

## "Azərbaycan düşmənin bütün hücumlarını dəf etməyə qadirdir, bu hədə reallaşarsa, Ermənistan tapdaq altında qalar..."

**Son vaxtlar erməni hərbçiləri yenidən Mingəçevir Su Elektrik Stansiyasını (SES) hədəf götürərək Azərbaycanı hədələməyə başlayıblar. Hətta düşmən tərəf sosial şəbəkələrdə Mingəçevir SES-in Google EARTS proqramı vasitəsilə çəkilmiş fotoşəkillərini "Hədəfimiz Mingəçevir su anbarıdır" müşayiətedici sözləri ilə yayırlar.**

Son belə hədə ilə separatçı rejimin qondarma müdafiə naziri Levan Mnatsakanyan çıxış edib. Maraqlıdır ki, Ermənistan hakimiyyəti və ordusu ötən əsrin 90-cı illərində olduğu kimi, mülki əhalini qorxu altında saxlamaq strategiyasının artıq köhnəldiyinin fərqində deyillər. Odur ki, internet üzərindən "qəhrəmanlıq" nümunələri göz deşir.

**Hərbi ekspert Ü.Cəfərov** isə deyir ki, ilk növbədə qondarma qurumun qondarma nazirinə Azərbaycan Müdafiə Nazirliyi səviyyəsində cavab verilməməlidir: "Həmin qondarma qurumun havadarı, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistandır. Bu gün Azərbaycan onların cavabını layiqli şəkildə verməyə hazırdır. Ermənistan bu hədələrlə uzaq gedə bilməz".

**Ekspertin sözlərinə görə, belə hədələr reallığa çevriləcəksə, Ermənistan çox pis duruma düşəcək:** "İlk növbədə Azərbaycanın hava hücumundan müdafiə qoşunları var və istənilən vaxt düşmənin hücumunun qarşısını almağa kifayət qədər resursa malikdir. SSRİ dövründə Bakı hava hücumundan müdafiə dairəsi olub. Həmin dairənin komandanı Tofiq Ağahüseynov olub. Bunu da unutmasınlar. Ona görə də belə boş, cəfəng iddialardan narahat olmağa dəyməz. Azərbaycan düşmənin bütün hücumlarını dəf etməyə qadirdir".

**Hərbi ekspert əmindir ki, düşmən çoxlu əsassız, yalan bəyanatlar verməklə yaranmış panik durumdan çıxmağa çalışır:** "Ermənilərin keçmiş baş naziri Baqratyan deyir ki, bizim atom bombamız var, Mnatsakanyan deyir ki, Bakını vuracağıq, dağıdacağıq, Mingəçeviri vuracağıq. Bunlar unutmamalıdırlar ki, atom elektrik stansiyaları var. Azərbaycan heç vaxt onların səviyyəsinə enib həmin stansiya ilə bağlı heç bir bəyanat verməyib. Bunlarda ağılsızlıq o dərəcədədir ki, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərini də partlatmaqla hədələyirlər. Bu bədbəxtlər anlamır ki, həmin neft kəməri təkcə Azərbaycanın maraqlarına xidmət etmir, Avropanın yarısını enerjidaşıyıcıları ilə təmin edir. Sənin ilk belə hücumun Türkiyəni adekvat addımlar atmağa, BTC-dən bəhrələnən həmin Avropanı sənin üzərinə gəlməyə məcbur edəcək. Ağıllarını itiriblər və buna görə də gözlərini açıb acı reallıqlara baxıb nəticə çıxarmaq əvəzinə, çərənləyirlər".

**Ü.Cəfərov Qarabağ probleminin birdəfəlik həlli zamanının yetişdiyini deyir:** "Savaş hələ bitməyib. Bizim təcrübəli kadrlarımız rəhbər vəzifələrdə istifadə olunmalıdırlar. Bu gün bizim bütün fəaliyyətimiz torpaqlarımızı tez bir zamanda düşməndən təmizləyib işğaldan azad etmək istiqamətində olmalıdır. Bu savaşı biz etməliyik ki, gələcək nəsillər işğaldan azad edilmiş Qarabağlı Azərbaycanda yaşasınlar, düşmənin çərənləmələrini, səfehləmələrini eşitməsinlər".

Qeyd edək ki, Mingəçevir SES Cənubi Qafqazda ən böyük su elektrik stansiyası sayılır və Kür çayının üzərində, Mingəçevir şəhərinin yaxınlığında yerləşir. 1957-ci ildə Varvara SES işə düşdükdən sonra ikisi birlikdə "Mingəçevir SES silsiləsi" adlanır. Mingəçevir su anbarı 1953-1959-cu illərdə doldurulub, su tutumu 16070 milyon kub metrdir. Dəryaçanın uzunluğu 70 kilometr, eni 13-18 kilometrdir. Su anbarının tikilməsi və iki kanalın çəkilməsi ölkədə 970 min hektar sahəni suvarmağa imkan yaradıb, 200 min hektar sahənin su altında qalmaq təhlükəsini aradan qaldırıb. "Mingəçevir SES silsiləsi"ndə 165 işçi çalışır. Stansiyanın tərkibinə 110, 220 və 330 kilovatlıq paylayıcı yarımstansiyalar daxildir. 6 hidroaqreqata malik olan Mingəçevir SES-in müəyyən olunmuş gücü 359 Mvt, orta illik elektrik enerjisi istehsalı 1,4 milyard kvadrat saatdır. Qovşağın ən əsas orijinal hissəsi yüksək təzyiqli torpaq bəndi nəinki Avropada yayulma üsulu ilə tikilmiş ən nəhəng (hündürlüyü 80 metr) bənddir. O işlənən materialların həcminə görə həm də dünyada çınqıl-qumdan tökülmüş yeganə bənddir.

❑ E.MƏMMƏDƏLİYEV



# Qələbə təntənəsinin sönükləşməsi

Xalid KAZIMLI

**Danmağın, üstündən keçməyin faydası yoxdur, 9 May artıq urvatsız bayramdır, nə əvvəlki təntənə var, nə də əski coşqu-büsat. Biz bu günü candərdi qeyd edirik, imtinanın Rusiyanın xoşuna gəlməyəcəyindən ehtiyat edirik. Ancaq daxildə 9 Mayın rus hərbçisinin bayramı olduğunu bilirik və dərhal yadımıza rus hərbçisinin başqa bir hərbi əməliyyatı - 20 Yanvar düşür.**

Bizdə 20 Yanvarın kölgəsi böyüyüb-böyüyüb 9 Mayı altına aldığı kimi, qazaxlarda da 16 Dekabrın, gürcülərdə 9 Aprelin, litovlarda 13 Yanvarın kölgələri 9 Mayın parlaqlığını sönükdürür.

Hələ bu xüsusda Macarıstan (1956), Çexiya (1968), Polşa (1980) tarixlərinin də qara günləri var və onların hamısı II Dünya müharibəsinin 3 qalibindən biri olan rus əsgərinin simasına çapıq salıb.

Avropa və Qafqaz xalqları rus əsgərinə kömək edərək alman və italyan, eləcə də yapon faşistləri üzərində ona görə qələbə qazanmamışdılar ki, bu əsgər gəlib sonradan onlara atəş açsın, qətliam törətsin.

Artıq neçənci onillikdir ki, insanlar bizim uzun illər "Böyük Vətən Müharibəsi" adlandırdığımız, əslində isə II dünya müharibəsinin böyük və həlledici epizodu olan savaşa ideoloji mövqedən yanaşmır, tarixi prizmadan və praqmatikcə yanaşırlar.

İndi çoxları bu müharibəyə iki qəddar ideologiyanın, dünya ağalığı iddiasında olan irqçiliyin və dünyanı ibtidai kommunallarla doldurub idarə etmək istəyən qanlı kommunizmin savaşı kimi baxırlar. Onların hər ikisi insan qanına susamışdı. Hazırda bəşər əhli İŞİD terrorunun görüntülərindən necə dəhşətə gəlirdisə, 75-80 il öncə bütün Avropa qərbdə Hitlerin və faşistlərin, şərqdə Stalin və kommunistlərin qəddarlığından, milyonlarla insanı məhv etməsində o cür sarsılmışdır.

Bu, həm də iki paranoik tiranın - Hitler və Stalinin savaşıydı. Onlardan biri böyüklük maniyasına yoluxmuşdu, digəri təqibolunma maniyasından əziyyət çəkirdi. Avropada və Asiyanın böyük bir hissəsində yaşayan milyonlarla insan məhz bu iki psixi xəstənin qeyri-insani fantaziyasının güdazına getdilər.

Bəs ABŞ və İngiltərə nəyə görə bu iki pis qüvvədən məhz SSRİ-yə qahmar çıxdılar? Çünki Hitler Almaniyası daha təhlükəli idi, daha qəddar idi, üstəlik, daha iddialı idi. Ona kömək olunardısa, Hitler dünya ağalığı ideyasını gerçəkləşdirə bilərdi. Ona görə də ABŞ və İngiltərə zəif SSRİ-nin tərəfini tutaraq güclü yırtıcını zərərsizləşdirdilər, daha sonra bu "zəif yırtıcı"nın da gücləndiyini görərək, onu da "soyuq müharibə" yolu ilə cilovlamağa çalışdılar.

Əgər 1941-ci ildə sovet Rusiyası hücum edərək Almaniya torpaqlarının dərinliklərinə girsəydi, ABŞ və İngiltərə, eləcə də Fransa və İtaliya kimi dövlətlər məhz Almaniyaya kömək edər, rusları geri oturdardılar.

Başqa sözlə, II dünya müharibəsi Avropanın iri dövlətlərinin müharibəsi olaraq başlayıb, daha sonra dünyanı əhatə edib. Böyük dövlətlər milyonlarla insanın qanı bahasına öz aralarındakı "kim kimi" problemini həll ediblər. Odur-budur, avropalılar daha müharibə etmirlər, ağıllanıblar, bilirlər ki, o cür qanlı müharibələrlə heç nə əldə etmək mümkün deyil.

Azərbaycan 300 mindən artıq oğul və qızını itirdiyi müharibədə epizodik rolda oynayıb. İtkimiz böyük, qazancımız az olub. İndiki meyarlarla yanaşsaq, belə görünür ki, 1945-ci ildə SSRİ yox, faşist Almaniyası qalib gəlsəydi, bunun Azərbaycana elə bir isti-soyuğu olmayacaqdı. Faşistlərin soyunu kəsmək istədiyi xalqların siyahısında Azərbaycan türkləri olmasa da, özlüyündə faşizm antibəşəri ideologiya olduğundan heç kəs ondan fayda da görə bilməzdi.

Bununla belə, həmin müharibədə həlak olan həmvətənlərimizlə yanaşı, yüz minlərlə soydaşımız məşəqqətli cəbhə həyatı yaşayıb, yaralanıb, zülm-zillət görüblər. Arxa cəbhədə milyonlarla insanımız məhrumiyyət, iztirab, sıxıntılar çəkiblər.

Ona görə də onlar, eləcə də müharibə xatirələri böyüyən orta nəsil bu müharibəyə soyuqqanlı yanaşa bilməzlər. Mümkün də deyil.

Bir də arxivlər açıldıqca ortaya çıxır ki, rus hərbçilərinin törətdiyi hərbi cinayətlər faşist əsgərlərinin analoji cinayətlərindən daha çox olub. Almaniyanın sovet işğalı altında qalan ərazilərində dinc əhaliyə qarşı kütləvi güllələnmə və zorlama hadisələri baş verib.

Bu baxımdan hazırda ölkəmizdə 9 May qələbəsinin təntənəsiz qeyd edilməsini anlamaq olar. Biz öz müharibəmizin qələbəsini qeyd edəcəyik.



# Elman Rüstəmovdan devalvasiya olmayacaq vədi - inanaqmı?

## Ekspertlər bildirir ki, maliyyə bazarında sabitlik bəyanatları real deyil

**Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov yenə manatın məzənnəsi barədə danışıb. Baş bankir bu dəfə də manatın məzənnəsinin sabitliyi barədə fikir bildirib. Onun sözlərinə görə, manat ilin sonuna qədər sabit məzənnədə olacaq: "Son vaxtlar milli valyutanın məzənnəsində sabitlik hiss olunur".**

"Report"un xəbərinə görə, E.Rüstəmov qeyd edib ki, hamını manatla bağlı proqnoz maraqlandırır: "Son dövrlər valyuta alışını həyata keçirmişik. Manat yenə də "üzən məzənnə" rejimində öz dayanıqlığını axtarır. Hamını manatla bağlı proqnoz maraqlandırır. Bu, həm daxili, həm də xarici amillərlə bağlıdır. Bugünkü vəziyyət onu deməyə əsas verir ki, ilin sonuna qədər manatın məzənnəsində dəyişiklik gözlənilmir. İqtisadi vəziyyət bunu deməyə əsas verir. Manatın məzənnəsi neft qiymətləri ilə deyil, Azərbaycan Dövlət Neft Fondunun gəlirləri ilə bağlıdır". **O bildirib ki, ilin əvvəlindən indiyə kimi Mərkəzi Bankın valyuta ehtiyatları artaraq 4,2 milyard dollara yaxın məbləğə çatıb:** "Neftin qiyməti yüksələrsə, təbii ki, strateji valyuta ehtiyatlarımız artacaq". Onun sözlərinə görə, məzənnə bazarın tələbatına müvafiq müəyyən olunur.

**Ekspert Fikrət Yusifov isə musavat.com-a açıqlamasında manatın sabitliyinin iqtisadiyyata təsirlərini açıqlayıb. Onun sözlərinə görə, manatın məzənnəsinin sabitləşməsi bütövlükdə maliyyə sistemimizin sabitləşməsi üçün çox önəmli amildir:** "Son zamanlar bütün səviyyələrdə qəbul edilən qərarlar nəticə etibarı ilə iki kəskin devalvasiyadan sonra manat ətrafında yaranmış bir inamsızlığı praktik olaraq tədricən aradan qaldırır. Belə ki, əmanətlərin yüz faiz sığortalanması ilə bağlı qəbul edilmiş sərəncam, Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması, Mərkəzi Bankın bu bazarlara nəzarət sahəsində bir çox funksiyalarının bu palataya verilməsi buna sübutdur. Bu, o deməkdir ki, artıq dövlət səviyyəsində bu bazarlara nəzarət daha ciddi şəkildə həyata keçiriləcək. Yəni həyata keçiriləcək ki, bir daha manat ətrafında baş vermiş, pul kredit sistemində baş vermiş olayları yaşamayaq. Manatın məzənnəsinin bütünlükdə sabitləşməsi o deməkdir ki, manata olan inam getdikcə artacaq. Bu proses də artıq baş verib".

**Ekspertin sözlərinə görə, Mərkəzi Bankın son açıqlaması onu göstərdi ki, artıq insanlar banklara əmanətləri yatırmağa daha çox meyl edirlər:** "Bu sahədə artıq artım var. Banklarımız daha böyük manat resursları əldə edib və nəticə etibarı ilə manatda olan kreditlərinin verilməsi üstünlük təşkil edəcək. Digər tərəfdən, manatın sabit olması daha ciddi investisiya layihələrinin reallaşdırılmasına, iş adamlarını çəkinmədən yatırım etməyə, real sektorda, qeyri- neft sektorunda ayrı-ayrı layihələri reallaşdırmağa daha çox həvəsləndirəcək. Daha çox inamlı edəcək. Manatın sabit olması bütövlükdə iqtisadiyyatımızın sabit olması anlamına gəlir. Belə ki, milli valyuta sabit olan yerdə eyni zamanda xarici kapitalın ölkəyə axını çox məmnuniyyətlə edilir. Yəni xarici investorlar məmnuniyyətlə ölkəyə gələcəklər. Yəni burada tək bir məsələnin həlli baş vermir. Manatın sabitliyi ilə bütövlükdə nəticə etibarı ilə ölkə iqtisadiyyatının sabitliyi əldə olunacaq. Son dövrlərdə dünya bazarlarında neftin qiymətlərində artım, digər tərəfdən, manatın daha sabit olacağına ciddi əsas yaradır. Bir sözlə, manat sabit olarsa, bu, iqtisadiyyat sabit olacaq deməkdir. Manatın sabitliyi iqtisadiyyatın sabitliyi anlamına gəlir. İqtisadiyyat sabit olarsa, ölkədə maliyyə durumu sabit olacaq, dövlət qarşısına qoyduğu sosial proqramları yüksək səviyyədə icra edə biləcək. Bunlar hamısı zəncirvari qaydada bir-biri ilə bağlı olan məqamlardır".

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a bildirib ki, manatın sabitliyi ilə bağlı fikirlər doğru deyil:** "Hesab edirəm ki, ümumiyyətlə bu bəyanat qeyri-ciddidir. Çünki Elman Rüstəmov orada belə bir ifadə işlədib ki, manatın məzənnəsi neftin qiymətindən deyil, Neft Fondumuzun gəlirlərindən asılıdır. Yəni sual oluna bilər ki, bəs Neft Fondunun gəlirləri nədən asılıdır? Aydın məsələdir ki, Neft Fondunun gəlirləri neftin qiymətindən asılıdır. Əlbəttə, Neft Fondunun müəyyən cüzi bir gəliri var ki, o, mövcud ehtiyatların idarəedilməsindən əldə olunan gəlirdir. Elə böyük rəqəm deyil. Neft Fondunun gəliri neftin qiymətindən və neftimizin hasilatından asılıdır. Neftimizin hasilatının həcmi düşüb. Bunu Elman Rüstəmov hətta öz doktorluq əsərində, yəni dissertasiyasında qeyd edib. Rusiyada müdafiə etdiyi dissertasiyasında yazıb ki, Azərbaycanda neft hasilatının pik həddi 2011-ci ildə olacaq. Ondan sonra hasilat düşə-düşə gedəcək. Neftin qiymətinin də artımı ciddi şəkildə yoxdur. Belə şəraitdə Elman Rüstəmovun manatın məzənnəsinin Neft Fondunun gəlirlərindən asılı olmasını deməsi düzgün deyil. Digər tərəfdən də bəyanatda belə deyib ki, indiki iqtisadi vəziyyət belə deməyə əsas verir. İqtisadi vəziyyətimiz isə göz qabağındadır, iqtisadi vəziyyət pisləşir, iş yerləri bağlanır. Yəni ötən il ölkəmizin ticarət balansı, tədiyyə balansı müsbət idi, artıq mənfidir. Bu amil də var. Bilmirəm baş bankir nəyə əsasən o cür bəyanatlar verir. Amma prinsipcə, devalvasiyanın olmayacağını deyəndən dərhal sonra devalvasiyaya gedən şəxsdən başqa söz gözləmək də olmaz".

❑ Röya RƏFİYEVA



# İran Azərbaycanla sərhəddə güzəştlərin tətbiqi məsələsini araşdırır

**İranın Xarici İşlər Nazirliyi Azərbaycanla sərhəd -buraxılış məntəqələrində güzəştlərin tətbiqi məsələsini araşdırır. APA-nın Tehran bürosunun məlumatına görə, bunu İranın Xarici işlər Nazirliyinin sözçüsü Hüseyn Cabiri Ənsari bildirib.**

H.Cabiri Ənsari deyib ki, ötən həftə Azərbaycan və İran müştərək sərhəd-buraxılış məntəqələrinə və sərhədinə baxış keçirib. "Hər iki tərəfdən gediş-gəlişə nəzarət buraxılış məntəqəsinin işi ilə tanış oldum və bir sıra problemlərin olduğunun şahidi oldum. İranın Xarici İşlər Nazirliyi sərhəd -buraxılış məntəqələrində hər iki ölkənin vətəndaşlarının gediş - gəlişinin asanlaşdırılması, həmçinin yük daşımaları və yük maşınlarının gediş-gəlişinin asanlaşmasını gündəmdə saxlayır".

H.Cabiri Ənsari qeyd edib ki, sərhəd-buraxılış məntəqəsinin məsul şəxsləri bütün çətinliklərə baxmayaraq çalışırlar ki, hər iki ölkənin vətəndaşlarına xidmət etsinlər və onların gediş-gəlişini asanlaşdırsınlar: "Ümid edirəm sərhəd-buraxılış məntəqələrində mövcud olan bəzi problemlər aidiyyəti qurumlar tərəfindən öz həllini tapacaq".

H.Cabiri Ənsari Araz iqtisadi zonasının uğurlu bir iqtisadi zona olduğunu da vurğulayıb: "Ümid edirəm sanksiyaların ləğvindən sonra iqtisadi zonada düzgün idarəetmə nəticəsində daha faydalı işlər görüləcək".

YENİ MÜSAVAT
N 100 (6421) 10 aprel 2016

**90 saylı Ağdaş seçki dairəsində iyunun 18-də keçiriləcək təkrar deputat seçkilərinə hazırlıq davam edir. Mərkəzi Seçki Komissiyasından əldə etdiyimiz məlumata görə, indiyə qədər 8 nəfər deputatlığa namizədliyini irəli sürüb. İddiaçılardan yalnız ikisi siyasi partiyalar tərəfindən namizədliyi irəli sürülən şəxslərdir. Bunlar hakim Yeni Azərbaycan Partiyasından Cavid Osmanov, Ümid Partiyasından İqbal Ağazadədir. C.Osmanov YAP-ın Ağdaş rayon şöbəsinin sədri və Ağdaş Rayon İcra Hakimiyyəti başçısının müavinidir. İqbal Ağazadə isə bəllidir ki, Ümid Partiyasının sədridir və uzun müddət Milli Məclisin üzvü olub.**

# Ağdaşda İqbal Ağazadənin seçki kampaniyasına müdaxilə

## Tamilla Qulami: "Dəfələrlə avtomobilimizin önünə qəfildən keçərək qəza vəziyyəti yaratdılar, rayonu tərk etməyimizi tələb etdilər"

Artıq İqbal Ağazadənin imzatoplama kampaniyası sona çatıb. İ.Ağazadənin namizədliyinin qeydə alınması üçün 550 imza toplanıb. Bu barədə Ümid Partiyası sədrinin müavini, İqbal Ağazadənin seçkilərdə səlahiyyətli nümayəndəsi Tamilla Qulaminin "Yeni Müsavat"a verdiyi məlumata görə, 28 saat ərzində imzaları toplayıb yekunlaşdırıblar. Yaxın bir-iki günə Dairə Seçki Komissiyasına təqdim edəcəklər.

**T.Qulaminin dediyinə görə, Ağdaş rayonunun mərkəzində və kəndlərində imza toplayan zaman onlara YAP-ın deputatlığa namizədinin yaxın adamları və bələdiyyə sədrləri tərəfindən təzyiq olub:** "Rayona daxil olduğumuz andan rayonu tərk edənədək bizi avtomobillərlə izlədilər, dəfələrlə avtomobilimizin önünə qəfildən keçərək qəza vəziyyəti yaratdılar. Qarşımızı kəsib açıq şəkildə deyirdilər ki, Cavid Osmanovun adamlarıdırlar və Ağdaşdan onun deputat olmasına nəyin bahasına olur-olsun nail olacaqlar. Bildirirdilər ki, Cavid Osmanova mane olmaq istəyən istənilən adamı məhv edəcəklər. Bizim yemək üçün oturduğumuz kafenin sahibi gəlib dedi ki, çox xahiş edirəm burda oturmayın, çünki mənə Cavid Osmanovun adamları təzyiq edir, burda otursanız kafeni bağlayacaqlar. Bir nəfər isə hücum edərək dedi ki, Cavid müəllimin adamıyam, heroin istifadəçisi olmuşam, türmədə yatıb çıxmışam, başım xarabdır, atam da hazırda həbsdədir. Bizdən rayonu tərk etməyimizi tələb edirdi. Bir çox seçicilərə, əsasən də kəndlərdəki seçicilərə Cavid Osmanovun adamları və bələdiyyə sədrləri tərəfindən başqa namizədə imza verməmələri üçün hədə-qorxu gəlinmişdi. Seçicilər özləri bur barədə deyirdilər. Ancaq sevindiricidir ki, seçicilərin çoxu hədələrə baxmayaraq İqbal Ağazadəyə



səs verirdilər. Kəndlərdə seçicilər artıq boğaza yığıldıqlarını, Cavid Osmanovdan və harınlamış bələdiyyə sədrlərindən canlarının qurtarmasını istədiklərini deyirdilər. Əhali İqbal bəyi tanıdığı üçün ona imza verdiklərini və İqbal bəyin onları Milli Məclisdə təmsil etməsini arzuladıqlarını bildirirdi. İmzatoplama mərhələsində bizə etimad göstərən, dəstəkləyən, imza verən bütün ağdaşlılara təşəkkürümüzü bildiririk. Onların İqbal bəyə sonadək dəstək verəcəklərinə inanırıq".

**T.Qulami onu da dedi ki, Cavid Osmanovun adamlarının və bələdiyyə sədrlərinin təzyiqləri, seçki kampaniyasına mane olmaları ilə bağlı Daxili İşlər Nazirliyinin "102" xidmətinə zəng edib məlumat veriblər. Bundan sonra Daxili İşlər Nazirliyindən məsələ ilə bağlı araşdırma aparılması üçün Ağdaş Rayon Polis Şöbəsinə göstəriş olub:** "Ağdaş Polis Şöbəsindən isə bizə bildirildi ki, yazılı izahat olmalıdır. Bundan sonra araşdırma başlaya bilər. Biz izahat vermək üçün getmədik və imzaları toplayıb Bakıya döndük. Biz Mərkəzi Seçki Komissiyasından, Daxili İşlər Nazirliyindən, Ağdaş Rayon İcra Hakimiyyətindən Ağdaşda seçki kampaniyasına deputatlığa namizədliyi irəli sürülmüş Cavid Osmanovun müdaxilə etməsi, mane olması ilə bağlı ölçü götürülməsini xahiş və tələb edirik. Ədalət naminə deyim ki, bizə qarşı quldurcasına hərəkətlərdə icra başçısının adı hər hansı formada çəkilmirdi. Belə hiss edilirdi ki, Osmanov əslində özfəaliyyətlə məşğuldur. Onun daha bir qanunsuzluğu təbliğat-təşviqat kampaniyası başlamadan rayonda özünün təbliğat kampaniyasını, təbliğat materiallarını yaymasıdır".

**Etibar SEYİDAĞA**



Cavanşir Abbaslı    Cavid Hacıbəyli

# Müsavatdan daha iki nəfər istefa verdi

**Müsavat Partiyasından "AĞ blok" üzvlərinin istefası davam edir. Mayın 9-da daha iki nəfər partiyadan istefa verib. Partiyanın üzvü olan gənc fəal Cavanşir Abbaslı bununla bağlı musavat.com-a bildirib ki, artıq istefa ərizəsini partiya Divanına təqdim edib: "2009-cu ildən partiyanın Nəsimi rayon təşkilatının üzvüyəm. Partiya üzvü olduğum gündən bu günə qədər müsavatçılıq ideologiyası uğrunda bacardığım xidmətləri göstərmişəm. Ailəlikcə müsavatçı olmuşuq. Atam 1992, qardaşım isə 2003-cü ildən Müsavatın üzvüdür. Hər zaman müsavatçılıq ideologiyasının ölkəmizdə uğur qazanacağına inanmışıq. Təəssüflər olsun ki, Müsavat qurultayından sonra partiyada aparılan siyasətin müsavatçılıq ideologiyası ilə zidd olduğu qənaətinə gəldik. Qurultaydan sonra partiyada qalmağa qərar versəm də, sonda bunun mənasız olduğunu qəbullanıb, istefa vermək qərarına gəldim. Həqiqi müsavatçılara gələcək mübarizələrində uğurlar arzulayıb, bundan sonrakı haqq mübarizəsində birlikdə olacağımıza ümid edərək partiyadan istefa verdiyimi bəyan edirəm".**

Gənc fəal Cavid Hacıbəyli də istefa verdiyini bəyan edib. O, musavat.com-a deyib ki, 2003-cü ilin oktyabr ayından Müsavat Partiyasının üzvüdür: "Mən partiyaya şəxslərə görə gəlməmişəm. Partiyaya üzv olmağımın başlıca səbəbi müsavatçılıq ideologiyasıdır. Mənim düşüncəmə görə, biz bu ideologiyanı yaşatmalı və Rəsulzadə irsini qoruyub saxlamaqla gələcək nəsillərə ötürməliyik. Müsavatçı olmaq partiyaya üzv olmaq demək deyil. Hazırda Nəsimi rayon təşkilatında şura üzvüyəm. Bundan öncə gənclər təşkilatında sədr müavini və 2013-cü ildə gənclər təşkilatında keçirilən seçkidə sədrliyə namizəd olaraq seçkilərdə qanuni sədr seçilmişəm. Təəssüf ki, qanunsuz olaraq seçkinin nəticələri ləğv edildi. Gələcək nəsillər də bilməlidir ki, böyük öndərimiz M.Ə.Rəsulzadənin qurub yaratdığı Müsavat Partiyasında 103 il sonra bu kimi proseslərin baş verməsi hər birimizi üzüb və bu minvalla partiyada qalmağın mümkünsüzlüyü bir daha aydın olub. Ölkədəki avtoritar idarəçiliklə mübarizə aparmaq üçün mütləq Müsavat Partiyasının üzvü olmaq şərt deyil. Minlərlə müstəqil və digər partiya, təşkilat, hərəkat üzvləri var ki, rejimlə daha ciddi mübarizə aparırlar, həbs edilən siyasi məhbuslarımız arasında da bunu görmək olar".

Qeyd edək ki, bundan əvvəl "AĞ blok"un təsisçilərindən Tural Abbaslı başda olmaqla, Müsavat Partiyasının beş üzvü istefa verib. Mayın sonunda blokun partiyaya çevriləcəyi gözlənilir.

**RÖYA**

# İlqar Məmmədova görə Qərblə münasibətlər yenidən gərginləşə bilərmi?

## Səidə Qocamanlı: "İlqar bəyin azadlığı ilə bağlı məsələdə müsbət nəticə olacaq"

**Həbsdə olan REAL sədri İlqar Məmmədov barəsində aprelin 29-da Şəki Apelyasiya Məhkəməsinin əvvəlki qərarı qüvvədə saxlaması bir çox müzakirələrə yol açıb. Əvvəlcədən Məmmədovun azadlığa buraxılacağına olan ümidlərin sonda əksi baş verdi.**

REAL sədri barədə hakimiyyətin direniş göstərməsi ən çox müzakirə olunan məsələlərdən biridir. Bu ilin martından başlayaraq, Qərb Azərbaycan hakimiyyətinin siyasi məhbuslar və insan haqları məsələləri ilə bağlı yürütdüyü siyasəti açıq şəkildə alqışlayırdı. Bu nüansı nəzərə alaraq, bəzi ekspertlər hesab edirlər ki, İ.Məmmədov barədə ölkə iqtidarının mövqeyi Avropa ilə münasibətləri yenidən kəskinləşdirə bilər. Avropa İnsan Haqları Məhkəməsinin azadlığa buraxılması tələbi ilə REAL sədri barədə 6 qərar qəbul etməsi bu düşüncələrin formalaşmasına səbəb olub. Bunların fonunda hazırda hər kəsi düşündürən bir sual var.

Azərbaycan hakimiyyəti İ.Məmmədova görə Avropanı qarşısına niyə alır?



**Politoloq Natiq Miri hesab edir ki, Qərb fərdlərə görə Azərbaycanla münasibətləri korlamaz:** "Amerika başda olmaqla, bütün Qərb dünyası hansısa bir ölkə ilə münasibətləri fərdlər üzərindən qurmurlar. Həmin şəxs Qərbin maraqları kontekstində olsa belə, bir dövlətlə olan münasibətlər fərdlərlə olan münasibətdən daha önəmlidir. Bu baxımdan, Qərb dünyasının özünün geosiyasi maraqlarını daha üstün tutduğu qənaətindəyəm. İlqar Məmmədovla bağlı Qərb Azərbaycanla münasibətləri korlamağa qədər getməyəcək. Sadəcə olaraq, bu prosesi davam etdirəcək. Nə qədər mümkünsə, ora qədər danışıqlar gedəcək. İlqar Məmmədovun azad edilməsi üçün bütün mümkün variantlardan istifadə olunacaq. Bu baş verməsə belə, Azərbaycan hakimiyyəti ilə münasibətlər korlanmayacaq. Azərbaycanla bu məsələyə belə mövqedən yanaşmaq doğru deyil. Onlar hər şeyi öz maraqları çərçivəsində edirlər. Azərbaycanla münasibətlər də bu kontekstdə qurulur. Öz siyasi maraqlarının əleyhinə Qərb heç vaxt getməz. Fikir verirsinizsə, Avropa Birliyi ilə yeni kontekstdə danışıqlar aparılır. Buna görə də düşünmürəm ki, Azərbaycan Qərbi qarşısına almış durumdadır".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı da bildirdi ki, REAL sədri ilə bağlı məsələ Azərbaycan-Qərb münasibətlərində yeni gərginlik yaratmaz:** "Avropa son əfvi alqışladı. Hazırda siyahımızda 8 məhbusun adı qaldığına görə Qərb məsələyə müsbət yanaşır. İlqar Məmmədov qısa müddətdə azad olunacaq. Buna çox ümid edirəm. Bu gərginliyin aradan qaldırılacağını düşünürəm. İlqar Məmmədov Avropa Şurasının layihəsinin direktoru idi. Yəni Avropa Şurası tərəfindən maliyyələşdirilən məktəbin rəhbəri idi. Ona görə Avropa Şurasında narahatlıq var. Amma çox ümid edirəm ki, İlqar tez bir zamanda buraxılacaq. Bu məsələ də, ümumiyyətlə, gündəmdən çıxarılacaq. İlqar bəyin məsələsi ilə bağlı qısa zamanda müsbət nəticə olacaq. İlqar Məmmədovdan əlavə, Xədicə İsmayıl başda olmaqla, bir sıra məhbuslar var ki, onların da taleyi Avropanı narahat edir. Bu məhbuslar da qısa zamanda azadlıqlarına qovuşacaqlar".

Xatırladaq ki, İ.Məmmədov 2013-cü ilin yanvarında baş verən İsmayıllı hadisələrinə görə həbs olunub. 7 il həbs cəzası alan REAL sədri ilə bərabər həbs edilən Müsavat başqanının müavini Tofiq Yaqublu bu ilin martında əfv sərəncamı ilə azadlığa buraxılıb.

**Cavanşir ABBASLI**

# Müsavat və AXCP dostlaşa biləcəkmi...

## Tofiq Yaqublu danışıqlara başlayıb; "Əvvəlki kimi davam eləyə bilməz"

**Ötən həftənin sonunda Müsavat Partiyası və AXCP-nin rəhbərliyinə daxil olan şəxslər arasında ard-arda iki görüş keçirilib. Milli Parkda çay süfrəsi arxasında keçirilən görüşün təşəbbüskarı Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublu olub.**

Çay süfrəsi arxasında baş tutan görüşdə Müsavat başqanının müavinləri Tofiq Yaqublu və Elman Fəttah, Divan üzvləri Alya Yaqublu və Nemət Kərimli, AXCP sədrinin müavini Gözəl Bayramlı, AXCP İdarə Heyətinin üzvləri Nemət Əliyev və İlham Hüseynli iştirak ediblər. Görüş barədə facebook səhifəsində məlumat yayan Tofiq Yaqublu zarafatla bildirib: "Müsavatçılar deyirlər ki, ən böyük AXCP, cəbhəçilər deyirlər ki, ən böyük Müsavat. Çayın pulunu ödəmək lazımdır axı. Bulvarda da hər şey od qiymətinə..."

Bu statusa sosial şəbəkədə zarafatla rəy bildirən müsavatçılar cəbhəçiləri, cəbhəçilər isə müsavatçıları haqlı sayıblar. Bir sıra tanınmış insanlar isə "təki belə görüşlər olsun, çaypulunu biz verərik", -deyə rəy bildiriblər.

Qeyd edək ki, Tofiq Yaqublu həbsdən çıxdıqdan sonra AXCP-Müsavat münasibətlərində yaranan "soyuqluğu" aradan qaldırmaq üçün təşəbbüs göstərəcəyini bəyan etmişdi. Ötən həftənin sonlarında Müsavat və AXCP rəhbərliyinə daxil olan şəxslərin görüşü barədə sosial şəbəkədə Müsavat Partiyasının başqanı **Arif Hacılı** fikirlər qeyd edib. A.Hacılı bildirib ki, müxalifətin birliyi cəmiyyətin maraqlarına uyğundur, ona görə də bu istiqamətdə iş aparmaq üçün müavini Tofiq Yaqublunu görəvləndirib: "Rejimin müxalifəti ümumiyyətlə siyasi sistemin tərkib hissəsi hesab etmədiyi, faktiki olaraq birpartiyalı sistem qurmağa çalışdığı indiki məqamda müxalifətdaxili çəkişmələr xüsusilə zərərlidir. Bu vəziyyəti dəyişmək, "mübarizə xəttini müxalifətin daxilindən çıxarmaq", ilk mərhələdə müxalifətin funksional əməkdaşlığına nail olmaq üçün çalışırıq. Fikrimizcə, Müsavat və AXCP-nın əməkdaşlığı ölkə müxalifətinin birliyinin təməli ola bilər. Bu istiqamətdə çalışmaları davam etdirmək üçün yeni həbsdən çıxmış müavinim Tofiq Yaqublunu görəvləndirdim".

**Tofiq Yaqublu isə təşəbbüskarı olduğu görüşlər və Müsavat başqanının onu görəvləndirdiyi barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, A.Hacılının addımı Müsavat rəhbərliyinin başqan səviyyəsində birliyə maraqlı olduğunun sübutudur:** "Arif bəyi çox sağ olsun ki, bu addımı atdı və ortaya mövqe qoydu. Bununla həm də Arif Hacılı mənim təşəbbüsümə dəstəyini ifadə etmiş oldu. Buna görə təşəkkür edirəm. Müsavat Partiyası müxalifətdaxili qarşıdurmanın əleyhinə olduğunu, mübarizəni bir-birimizə qarşı yox, iqtidara qarşı birgə aparmağın tərəfdarı olduğunu bir daha vacib saydığını ortaya qoydu. Hərə yaxasını kənara çəkib bir-birinə atmaca atmaqla heç nə dəyişəsi deyil. Azərbaycanı xilas etmək üçün birləşməliyik. Həm Müsavatda, həm AXCP-də hər kəs bilir ki, indiki hakimiyyət Azərbaycan üçün fəlakətli vəziyyət yaradıb və bu vəziyyət getdikcə ağırlaşır. Ölkəni, xalqı bu fəlakətdən xilas etməyin yollarından biri real müxalifət qüvvələrinin birliyindən keçir. Sağ olsunlar ki, həm AXCP-də, həm Müsavatda olanlar bu zərurəti dərk ediblər. Başa düşüblər ki, bu qarşılıqlı ittihamlar, yersiz polemikalar, birlikdən uzaq olmaq əslində iqtidarın işinə yarayır. İndiyə qədər olanlar artıq olub keçib. Bundan sonraya baxmaq lazımdır. Əvvəlki kimi davam eləyə bilməz. Bizim görüşlərimizdən sonra məndə ümid bir qədər artıb. Əməkdaşlıq münasibətlərini bərpa etməyə nail olmalıyıq. Sonrakı mərhələni isə zaman göstərəcək. İlk iki görüş göstərdi ki, biz düz yoldayıq. Burada söhbət iki partiyanın mexaniki birləşdirilməsi və ya bir blokda təmsil olunmasından getmir. Əlbəttə, gələcəkdə bunlar istisna edilmir. Ancaq indilikdə məsələnin vacibliyi ondadır ki, biz səylərimizi birləşdirməli, səmərəli fəaliyyət göstərməliyik. Bunun üçün də təmaslar başlayıb. Çox dərinə getmədən müzakirələr, fikir mübadiləsi aparırıq. Mənə elə gəlir ki, bu proses daha da dərinləşəcək. Müsbət nəticələr gözləməyə dəyər".

Nəzərə çatdıraq ki, 23 illik müxalifətçilikdə Müsavat və AXCP dəfələrlə əməkdaşlıq sazişi bağlayıblar. Lakin bir müddət sonra dostluq münasibətləri korlanıb və qarşılıqlı ittihamlar başlayıb. Son olaraq Müsavatla AXCP 2013-cü ilin prezident seçkilərində Milli Şura çərçivəsində əməkdaşlığa başladılar. Lakin qısa müddət sonra münasibətlər pozulmuşdu.

❑ Etibar SEYİDAĞA

# Niyə təkcə Rusiya səfiri döyüş bölgəsinə getdi...

## Minsk Qrupu üçlüyündən ABŞ və Fransanın səfirlərinin cəbhə xəttinə getməməsi suallar yaradıb

**Ötən həftə xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndələri cəbhə bölgəsindəki rayon və kəndlərdə oldular. Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən səfərdə məqsəd hazırda xarici ölkələrin Azərbaycanda akkreditasiya olunmuş 80-dən çox nümayəndəsini cəbhəyanı ərazilərdəki vəziyyətlə tanış etmək idi.**



2 aprel tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin təmas xəttində törətdikləri təxribatlar, xüsusən də Tərtər, Ağdam istiqamətində yaşayış məntəqələrini hədəfə alması və bunun nəticəsində də şəxsi və dövlət mülkiyyətinə dəymiş zərər haqqında beynəlxalq ictimaiyyətin, xüsusilə də Azərbaycanda akkreditasiya olunmuş xarici diplomatların məlumatlandırılması məqsədilə təşkil olunan səfərdə diplomatlar bu erməni vəhşilikləri ilə bir daha tanış oldular. Onların bəziləri elə cəbhə xəttindəcə öz mövqelərini ifadə etdilər. Gördüklərini təmsil etdikləri ölkələrə çatdıracaqlarını bildirdilər.

Erməni silahlı qüvvələrinin atəşə tutduğu cəbhəyanı ərazilərə səfər edənlər arasında Rusiyanın, Avstriyanın, İtaliyanın, Niderlandın və Türkiyənin Azərbaycandakı səfirləri var idi. Rusiya səfiri Vladimir Doroxinin şəxsən səfərdə iştirakı xüsusilə diqqəti cəlb etdi. Diqqəti cəlb edən və eyni zamanda sual yaradan başqa bir məqam ATƏT-in Minsk Qrupunun həmsədri olan digər iki ölkənin-ABŞ və Fransanın səfirlərinin cəbhə xəttinə səfər edənlər sırasında yer almaması oldu. Siyasi təhlilçilərin fikrincə, cəbhə bölgəsindəki vəziyyətlə yerindəcə tanış olmaq üçün ilk növbədə Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını üzərinə götürmüş Rusiya, ABŞ və Fransanın səfirləri həmin bölgəyə getməli idilər. Ancaq qeyd etdiyimiz kimi, üçlükdən təkcə Rusiyanın səfiri cəbhə xəttindəki rayonlara səfər etdi. ABŞ və Fransanın səfirliklərinin səfirdən aşağı vəzifə tutan şəxsləri Xarici İşlər Nazirliyinin təşkil etdiyi sözügedən səfərdə iştirak edirdilər.

Xarici İşlər Nazirliyindən əldə etdiyimiz məlumata görə, nazirlik ABŞ və Fransa səfirliyinə dəvətlərdə səfirlərin iştirakını nəzərdə tutub. Lakin səfər günü bəlli olub ki, adıçəkilən ölkələrin səfirləri yox, səfirliyin təmsilçiləri cəbhə bölgəsinə səfərdə iştirak edəcəklər.

Bu arada, dünən Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin Qarabağ probleminin həlli ilə bağlı açıqlama verib. Səfir qeyd edib ki, ölkəsi beynəlxalq hüquq normaları əsasında və bu regionda yaşayan insanların maraqlarında münaqişənin ədalətli həllinin tərəfdarıdır.

Səfirin sözlərinə görə, Rusiyanın bu məsələdəki mövqeyi dəfələrlə səsləndirilib: **"Onu həm XİN rəhbəri, həm də prezidentin mətbuat katibi bildirib".**

❑ E.SEYİDAĞA

# Bu gün Müsavat başqanının müavininin məhkəməsidir

## Şəki Təcridxanasında saxlanılan İlqar Məmmədov məhkəməyə müraciət edir; Xədicə İsmayılın məhkəməsi yubadılır; Əliməmməd Nuriyev: "Tez-tez əfv sərəncamlarının verilməsi cəza siyasəti ilə bağlı fərqli yanaşmaları ortaya çıxara bilər"

**May ayında gözlənilən əfv hələ ki reallaşmır. Novruz əfvindən sonra hakimiyyətin siyasi məhbuslarla bağlı başlatdığı müsbət prosesin davamlı olacağı barədə cəmiyyət arasında xəbərlər dolaşırdı. Bunun ilk rüşeymləri də özünü göstərirdi.**



Əliməmməd Nuriyev

Belə ki, Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyev azadlığa buraxıldı, hüquq müdafiəçisi Leyla Yunus və həyat yoldaşı Arif Yunusun xaricdə müalicə olunmaları üçün ölkədən çıxışlarına icazə verildi. Eləcə də "Meydan-TV" nin direktoru Emin Millinin qaynı və yazar Günel Mövludun qardaşları azad olundu. Amma bundan sonra prosesin dayandığının hər kəs şahidi oldu. Xüsusilə REAL sədri İlqar Məmmədov barədə son məhkəmə qərarı bunu açıq şəkildə göstərdi.

Əfv Komissiyasının iclaslarının son aylarda keçirilməməsi əfvə olan ümidləri tamamən puç edib. **Komissiyanın üzvü Əliməmməd Nuriyev** "Yeni Müsavat"a açıqlamasında tez-tez əfv sərəncamlarının verilməsinin cəza siyasəti ilə bağlı fərqli yanaşmaları ortaya çıxara biləcəyini vurğuladı: "Əfv Komissiyasının əsasnaməsinə uyğun olaraq, katiblik daimi işləyən orqandır. Hər gün ayrı-ayrı məhbuslardan, onların nümayəndələrindən müraciətlər daxil olur. Müraciətlər cənab prezidentin adına ünvanlanır. Bütün bu müraciətlər alındıqca toplanır və daha sonra onlarla bağlı müvafiq prosedurlar həyata keçirilir. Hər bir məhbus barəsində geniş arayış hazırlanmalı və sədrə təqdim olunmalıdır. Sədrin səlahiyyətinə daxildir ki, komissiyanın iclasını çağırsın. Hər bir müraciət üçün ayrıca iclasın çağırılması da düzgün olmazdı. Bu, müəyyən müddətdən sonra baş verən prosesdir. Əfvin verilməsi cənab prezidentin səlahiyyətinə aid məsələdir. Üç gün ərzində iclasın çağırılması ilə bağlı üzvlərə məlumat verilir və digər müvafiq işlər həyata keçirilir. Hesab edirəm ki, tez-tez əfv sərəncamlarının verilməsi cəza siyasəti ilə bağlı fərqli yanaşmalar yaradar. Onsuz da cənab prezident bilir ki, sərəncamı nə zaman imzalamaq lazımdır. Arzu edərdim ki, müraciət edən hər bir məhbusa bu şamil olunsun. Amma hər ay bunu etmək, məncə, doğru olmaz. Amma hər halda, yenə də deyirəm ki, prezidentə məxsus səlahiyyətdir. Bir faktı qeyd edim ki, müxtəlif illərdə Milli Məclis də amnistiya ilə bağlı qərar verə bilər. Məhbusların ölkəmizdə vaxtından əvvəl azad olunmalarının bir sıra institutları fəaliyyət göstərir. Bütün bunlar mütəmadi olaraq davam etməkdədir, qanunvericiliyin tələblərinə uyğun olaraq".

**Müsavat başqanının müavini Fərəc Kərimlinin mayın 10-da Ali Məhkəmədə növbəti prosesi olacaq. Bu barədə müsavat.com-a vicdan məhbusunun atası Raqif Kərimli məlumat verdi:** "Fərəcin vəziyyəti yaxşıdır. Sonuncu dəfə qardaşı Sirac görüşüb. Mayın 3-də məhkəməsi təxirə salındı. Mayın 10-da növbəti proses olacaq. Məhkəmə ilə bağlı elə bir yenilik yoxdur".

**REAL sədri İlqar Məmmədov məhkəməsindən sonra hələ də cəzaçəkmə müəssisəsinə köçürülməyib. Hazırda o, Şəki İstintaq Təcridxanasında saxlanılır. REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova bunları dedi:** "İlqar hələ Bakıya gətirilməyib. Özünün vəziyyəti normaldır. Tez-tez telefonla danışırıq. Deputatlığa namizədliyini qəbul etmədilər. Bununla bağlı əvvəl MSK-ya, sonra məhkəməyə müraciət ediləcək. Özü dedi ki, bununla bağlı məhkəməyə müraciət edilsin. Bu qərarı sakit qarşıladı. Çünki əvvəldən belə olacağını bilirdi".

**Araşdırmaçı jurnalist Xədicə İsmayılın Ali Məhkəmədə olacaq prosesi yubadılır. Vəkil Fariz Namazlı məhkəmənin yubadılması ilə bağlı bunları dedi:** "Çox güman ki, nə edəcəklərini fikirləşirlər. Ona görə prosesi yubadırlar. Keçən həftə Xədicə xanımın özü ilə görüşdüm. Ümumi vəziyyəti normaldır. Məhkəmənin yubadılması ilə bağlı onun özü də məhkəməyə məktub yazıb. Məktubuna da hər hansı bir cavab verilməyib".

Həbsdən çıxmasına 5 ay qalan sabiq səhiyyə naziri Əli İnsanovla da maraqlandıq. İnsanovun vəkili Toğrul Babayev mayın 10-da onunla həbsxanada görüşəcəyini və bundan sonra mətbuata məlumat verəcəyini qeyd etdi.

❑ Cavanşir ABBASLI

# Aslan batalyonu



Zamin HACI
zaminhaci@gmail.com

"Azərbaycan yatmış aslandır. Burda oyadırsan, gedir o biri yanda yatır"
**(folklorumuzdan)**

**Dünənki yazımda Qələbə günü mövzusuna bir qədər toxundum, istərdim mövzunu davam etdirim. Bizdə almanlarla dava mövzusunda çoxlu lətifələr, xalq yaradıcılığı nümunələri vardır. Bir Şəki lətifəsi isə qısaca belədir ki, almanların güc gəldiyini görən şəkili bir alman əsgərinin meyitini soyundurur, formanı dəyişib keçir o tərəfə. Sonra sovetlər güc gələndə sovet forması geyir. Bu, bir neçə dəfə təkrar olunanda almanlardan biri dözmür, təmiz Şəki ləhcəsi ilə deyir: "Ə Abdulcabbar, haindi biryolluq ya o yana keç, ya bu yana, yoxsa özüm səni öldürəcəm, bezdirdin bizi". Biz sovet vaxtı buna gülüb keçirdik, ağlımıza gəlməzdi ki, sırf elə bu lətifə həyatdan götürülmüşdür, kim bilir, bəlkə real hadisədir. İzah edim.**

Rusiyanın cənubundakı tarixi şəhərlərdən birini, dahi yazıçı Anton Çexovun doğulduğu Taqanroq şəhərini faşistlərdən azad edənlərin azərbaycanlılar olmasını yəqin çoxunuz bilirsiniz. Həmin azərbaycanlılardan ibarət diviziyaya elə bu şərəfə görə "416-cı Taqanroq diviziyası" adı verilmişdi, diviziya Berlinə qədər, Qələbə gününə qədər, necə deyərlər, şanlı döyüş yolu keçmişdi. Ancaq elə həmin dövrdə Taqanroq istiqamətində almanlar tərəfdən döyüşənlərin də... azərbaycanlılar olmasını çox az adam bilir. Ancaq bu, tragikomik bir həqiqətdir. Əsir azərbaycanlılardan yaradılan, Vermaxtın *(Alman ordusunun)* 804-cü azərbaycanlı dağ-atıcı batalyonu həmin döyüşlərdə - Nalçık, Mozdok, Suxumi, Taqanroq istiqamətində - o qədər igidlik göstərmişdi ki, hətta fəxri "Aslan" batalyonu adı almışdı. Bir xalqın cəbhənin müxtəlif tərəflərində başqa-başqa dövlətləri və ideologiyaları qoruyaraq savaşması tarixdə nadir rast gəlinir. Açığı, bu dəqiqə mən başqa örnək yada sala bilmirəm. Biz isə bu faktı ancaq SSRİ dağılandan sonra öyrəndik. O məşhur məsəli bir az dəyişdirsək, belə də deyə bilərik: güldüyümüz iş başımıza gəlibmiş.

Bax, belə işlərə görə tarixən bizə çətin olmuşdur. Bilməmişik hansı cəbhədə vuruşaq, kimə qarşı vuruşaq. Qardaş dediklərimiz kürəyimizə bıçaq saplayıb, elə özümüz də doğmalarımızı az satmamışıq. Haçana qədər belə olacaq, o şablon və zəhləmgetmiş ifadə ilə desək, "bizim millət düzələn deyildirmi" - çox başımı ağrıtmaq istəmirəm. Ağır mövzulardır. Dindarların belə vəziyyətlərdə aradan çıxmaq üçün yararlandığı gözəl və səmərəli üsul bizim də işimizə yarasın: "Bu xalqın sirrini bizə açmadılar".

Sözgəlişi, bir müşahidəmi də bölüşüm. SSRİ-də qərənfil 1 mayın - dünya zəhmətkeşlərinin həmrəylik günü bayramının rəmzi idi. Hamı 1 may nümayişinə qərənfillə çıxardı, paltarın döşünə qərənfil taxardılar. Sonra elə həmin SSRİ azərbaycanlıları gülləbaran elədi, nəticədə qərənfil matəm rəmzinə döndü, 20 yanvarın simvoluna çevrildi. Bu da onunla bağlı idi ki, əslində SSRİ-nin insan əməyinə, zəhmətkeşə verdiyi qiymət elə ölümə bərabər idi, yazıq camaat sutkada az qala 24 saat eşşək kimi işləyib əvəzində qəpik-quruş alırdılar. İndikilər də həmin hakimiyyətin varisləridir, bizdə sovet hökumətin əslində yıxılmayıb, bazar iqtisadiyyatına, liberal dəyərlərə keçid olmayıb.

Yeri gəlmişkən, keçmiş SSRİ-də 4 dəfə Sovet İttifaqı Qəhrəmanı adı alan cəmi 2 nəfər olub. *(Qəhrəmanlığın təkrarlanması da bir absurd idi)*. Onlardan biri marşal Jukov idi, ikincisi isə bizim yapistlərin xaç atası, əziz dostu Leonid Brejnev. Brejnev özü-özünə 4 dəfə Sovet İttifaqı Qəhrəmanı adı vermişdi. Belə karikatur dövlətdə yaşamışıq, indi bizi nə ilə heyrətləndirmək olar ki? Heç nə ilə. Əksinə, həyat getdikcə daha yeknəsəq, darıxdırıcı olur, sanki bütün maraqlı günlər geridə qalmışdır.

# Azərbaycan Qarabağı həmsədrlərdən alır

## Prezident İlham Əliyevin ABŞ-dan qayıdarkən Fransada olması xəbəri yayıldı; Azərbaycan aprel döyüşlərindən sonra diplomatiyada da "yüksəkliklərə nəzarət etmək" fürsəti qazanıb; **siyasi şərhçi:** "Həmsədrlər aprel əməliyyatları ilə bağlı prosesi dəstəkləyiblər"

**Cəbhədəki 2-5 aprel döyüşlərindən sonra dünyanın Qarabağ probleminə münasibəti kifayət qədər dəyişib və bu faktı dünyanın ciddi ekspertləri də təsdiqləyir. Məhz siyasi rəhbərliyin siyasi iradəsinin, ordumuzun qəhrəmanlığının nəticəsidir ki, son zamanlar sadəcə "ölü fəaliyyəti" ilə diqqət çəkən Minsk Qrupunun həmsədrləri də özlərini yığışdırmalı oldular.**

Aprel əməliyyatlarının arxasındakı mətləblər barədə müxtəlif fikirlər hələ də səslənir. Ancaq bu da istisna deyil ki, əslində həmsədrlər AŞ PA-nın 2016-cı il yanvar sessiyasında müzakirəyə təqdim olunan Qarabağa dair qətnamənin qəbuluna qarşı çıxmaqla həm öz missiyalarına zərbə vurdular, həm də cəbhə xəttində gərginliyə aparan yolu qısaltmış oldular. Xatırladaq ki, britaniyalı deputat Robert Volterin müəllifi olduğu "Dağlıq Qarabağ və Azərbaycanın ətraf rayonlarında zorakılıq hallarının artması" adlı məruzənin qəbulu ərəfəsində həmsədrlər bəyanat yayaraq məsələnin qəbuluna imkan vermədilər. O zaman Azərbaycan prezidenti də demişdi ki, həmsədrlər Ermənistanı mümkün olan problemlərdən qoruyurlar və münaqişənin həll olunmamasında onların böyük rolu var.

Təbii ki, bir neçə il öncə BMT Baş Assambleyasındakı səsvermə zamanı həmsədr ölkələrin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bitərəf qalması faktı bölgəyə mənasız səfərlər edən həmsədrlərə stimul vermişdi. Lakin o da mümkündür ki, həmsədrlər AŞ PA sessiyasında ədalətli qərarın qəbul olunmamasına nail olmaqla Ermənistanı danışıqlar masasına qaytaracaqlarını güman edirmişlər. Fakt budur ki, Azərbaycan və Ermənistan prezidentlərinin sonuncu Qarabağ müzakirələri 2014-cü ilin payızında, Fransa paytaxtında olmuşdu. O zaman Serj Sərkisyan növbəti görüşün 2015-ci ilin payızında, Nyu-Yorkdakı BMT Baş Assambleyasında olacağının anonsunu vermişdi. Lakin elə Paris görüşündən az sonra cəbhədə erməni təxribatı oldu və düşmən helikopteri məhv edildi. Növbəti il, yayın sonlarında isə məhz Nyu-York görüşündən qaçmaq üçün Ermənistan cəbhəboyu təxribat-diversiya əməllərini intensivləşdirdi. Reallıq bundan ibarət idi ki, Ermənistan danışıqlarda diktə etməklə həm də iri dövlətlərə qarşı belə saymazlıq edirdi. Bu mənada işğalçıya qulaqburmasının verilməsi həmsədr ölkələrin paytaxtlarının da marağında ola bilərdi.

Ancaq illərdir BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini prinsipial şəkildə İrəvandan tələb etməyən həmsədrlərin Qarabağdakı antiterror əməliyyatını passiv şəkildə dəstəkləməsi, ən azı Azərbaycandan hərbi əməliyyatları dayandırmağı tələb etməməsi məhz Azərbaycanın xarici siyasətinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev aprel əməliyyatları zamanı ABŞ-da səfərdə idi və Serj Sərkisyandan fərqli olaraq dünyanın supergücünün rəhbərliyi ilə mühüm görüşlər keçirmişdi. O zaman həmsədrlərin iştirakı ilə prezidentlərin görüşünün təşkil olunacağı deyilsə də, bu, baş vermədi...

Mirşahin Ağayev ötən həftəsonu müəllifi olduğu "Hesabat" proqramında çox ilginc bir məlumatı açıqladı. O, "biz dəqiq bilirik ki, dövlət başçısı Amerikadan Fransaya uçub və Azərbaycana da elə Parisdən gəlib" dedi. Hələ ki bu məlumat rəsmən nə təsdiq, nə də təkzib olunub. M.Ağayev onu da əlavə edib ki, "İlham Əliyev işini bərk tutan siyasətçilərdəndir, o, avantüraya getmir, ən xırda riski belə nəzərə alaraq addım atır". Müəllif onu da vurğulayıb ki, aprel əməliyyatları zamanı "Putinin 3 günlük susqunluğunda da prezident İlham Əliyevdən nəsə var".




### Bəs nə ola bilər?

Ermənistan Azərbaycan-Rusiya münasibətlərinin indiki durumundan, xüsusilə də Moskvanın razılaşmanı pozmayaraq Bakıya silah-sursat satışını davam etdirməsindən çox narahatdır. İrəvanda Türkiyə və Azərbaycan bayraqlarından əvvəl Rusiya bayraqları yandırılmışdı və bu gün də anti-Rusiya ovqatı hökm sürür. Təbii ki, Moskva Bakını özündən uzaqlaşdırmaq xətti yürütməyə meylli deyil. Bir tərəfdə Qərbin sanksiyaları ilə üz-üzə qalanda ona "yaman günün qonşusu" kimi dəstək olan Azərbaycan, digər tərəfdə isə "hərbi və strateji müttəfiqi" Rusiyanı bir günün içində Almaniya kansleri Merkelə satan, üstəlik, ac-yalavac durumunda Rusiya üçün yükə çevrilən Ermənistan rəhbərliyi var. Təbii ki, Moskva bölgədəki roluna görə Azərbaycana önəm verir. Buna isə Moskvanı inandırmaq çox da asan başa gəlməyib.

Bakı özünün düzgün kombinasiyalı siyasi oyunu ilə növbəti dəfə "soyuq müharibə" şəraitində yaşayan Rusiya və Qərbi Qarabağ məsələsində ortaq məxrəcə gəlməyə vadar edib. Elə aprel əməliyyatları zamanı üç paytaxtın-Moskva, Vaşinqton və Parisin ağzına su alıb susması, bununla da erməni lobbisini nokauta salması bunun əlamətidir. Bir az da obrazlı desək, Azərbaycan aprel əməliyyatları ilə artıq illərdir beynəlxalq səviyyəli problemə çevrilən, Minsk Qrupunun hegemonluğuna keçmiş Qarabağı özününkü etməyi, həmsədrlərdən almağı bacardı. 1994-cü ilin atəşkəs razılaşmasını hər gün pozan Ermənistanın budəfəki cəhdlərinə sarsıdıcı şəkildə cavab verən, bir sıra yüksəklikləri azad etməklə işğalçını vahiməyə salan Azərbaycan diplomatiyada da "yüksəkliklərə nəzarət etmək" fürsəti qazandı. Aprel əməliyyatlarına aparıcı dünya güclərinin neytral qalması, ermənilərin təklənməsi həm də Bakının diplomatik uğuru sayıla bilər.

**Bu mövzuda "Yeni Müsavat"a danışan siyasi təhlilçi Mehman Əliyev də hesab edir ki, həmsədr ölkələrin üçünün də mövqeyi bir-birinə yaxındır və üst-üstə düşür:** "Bu, onu göstərir ki, Qarabağ məsələsi ilə bağlı vahid bir siyasət, baxış var. Bu baxış ondan ibarətdir ki, Azərbaycan tərəfinin bu əməliyyatı keçirməsinə maneçilik törədilməmişdi. Deməli, prinsipcə, bu əməliyyatın keçirilməsi dəstəklənib. Ona görə dəstəklənib ki, erməni tərəfi Qarabağ məsələsinin həllində heç bir kompromisə getmir, deyir ki, "mən qalibəm, torpaq əlimdədir, bir hissəsini qaytara bilərəm, ancaq mənim dediklərim olmalıdır" və s. Yəni belə problemlər var. Tərəfləri bir araya gətirmək, ermənləri "soyuq duş"dan keçirmək üçün belə bir əməliyyat planlaşdırılıb və həyata keçirilib".

**M.Əliyev böyük savaş gözləntiləri ilə bağlı davamlı şəkildə yayılan xəbərləri ciddi saymır:** "Əgər erməni tərəfi danışıqlarda yenə də əvvəlki mövqedən çıxış etsə, o halda növbəti hərbi əməliyyatlar da baş verə bilər". **O, Azərbaycan prezidentinin Fransadakı görüşünün çox qısamüddətli olduğunu vurğuladı:** "Ancaq söhbət hansı ölkədə nə qədər olmaqdan getmir. Əgər İlham Əliyev Moskvada olmayıbsa, bu, o demək deyil ki, Rusiyanın bu hadisələrdən xəbəri olmayıb. Tərəflərin hamısının baş verənlərdən kifayət qədər xəbəri olub və həmsədrlər də bu prosesi dəstəkləyiblər".

**M.Əliyev aprel əməliyyatlarının 4-cü günündə Putinin prosesə müdaxiləsi və Moskvada atəşkəslə bağlı razılaşmanın əldə olunmasını da Kremlin özfəaliyyəti kimi dəyərləndirmir:** "Adətən bölgədə bu kimi hərbi proseslər baş verəndə məsələləri həll etmək, yaxud tərəfləri bir araya gətirmək işi həmsədrlər tərəfindən Rusiyaya həvalə olunur. İndi də biz Moskvanın rolunu görürük. Çünki bölgədə Rusiyanın bir sözünü iki eləmirlər. Lakin Rusiyanın fəallığı həmsədrlərin üçtərəfli razılığı əsasında baş verib. Yeni Moskvaya mandat verilib".

Mayın 9-da təşkil edilən rəsmi qəbulda da prezident İlham Əliyev Azərbaycanın prinsipial mövqeyini bir daha diqqətə çatdırıb. "Aprel döyüşləri bir daha ordumuzun gücünü, xalqımızın həmrəyliyini nümayiş etdirdi" deyən prezident vurğulayıb ki, indi əsas məsələ Dağlıq Qarabağ münaqişəsinin həllidir və Bakı bu istiqamətdə öz mövqeyini danışıqlar prosesində gücləndirir.

Azərbaycan aprel əməliyyatlarına qədər ikili standartların mövcudluğundan, dini ayrı-seçkilikdən, BMT qətnamələrinin yerinə yetirilməməsindən şikayətlənirdi. Ancaq son hadisələrin ardınca Bakı diktə mövqeyindədir. Həmsədrlərin monopoliyasından xilas edilən Qarabağ isə bir gün erməni işğalçılardan da azad ediləcək, bu, mütləqdir. Əgər ermənilər müzakirələrin sonunda yanlış qərar verib yenə də ənənəvi siyasəti müdafiə edəcəklərsə, tam müdafiəsiz və Azərbaycanla üz-üzə qalacaqlar. O halda Bakının torpaqları bir həftəyə azad etməklə bağlı işğalçıya ultimatum verməsi də təbii qarşılanacaq. Elə Dağlıq Qarabağın müstəqilliyinin tanınması barədə müzakirələrə Moskvadan verilən təpkidən sonra bu mövzunun ağzı bağlı quyuya atılması da buna işarədir...

❑ **Elşad PAŞASOY**

# Moskvadan işğalçı Ermənistana "qırmızı xətt" təpkisi və...

**Apreldəki 4 günlük müharibədən sonra Rusiyanın Qarabağ məsələsində mövqeyi hələ ki müəmma olaraq qalır. Bu müəmmanı prezident Vladimir Putinin qəfildən Bakıya bir günlük təcili səfər edəcəyi barədə yayılan xəbər bir az da gücləndirmiş oldu. Doğrudur, az sonra səfərin təxirə salındığı bildirildi. Ancaq məhz təxirə salındığı deyildi, ləğv edilmədi.**




# Putin Bakıya niyə gəlirdi ki gəlmədi - versiyalar...

## Mümkün səfər ərəfəsi Rusiyadan "Qarabağ klanı"na edilən 9 may "hədiyyəsi" təsadüfdürmü? Kreml başçısının təxirə düşən, lakin ləğv olmayan səfərinin mümkün pərdəarxası...

Deməli, belə ziyarətə ehtiyac qalır. Kremlə yaxın mənbələrə istinadən yayılan məlumatlara görə isə Putin məhz Qarabağ məsələsi ilə bağlı Azərbaycana gəlməyi planlaşdırıb. Belə çıxır, Moskva konfliktlə bağlı hansısa mərhələni yekunlaşdırmaq niyyətindədir. Hər halda, aprel əməliyyatlarından sonra həm xarici işlər naziri Sergey Lavrov, həm də baş nazir Dmitri Medvedyev kimi yüksək ranqlı Rusiya rəsmiləri Bakı və İrəvanda olublar. Növbəti, daha yüksək instansiya isə məntiqlə yalnız prezident Putin ola bilər(di).

***

Bəs hansı mərhələdən söhbət gedir? Ehtimal eləmək olar ki, Rusiya Qarabağ münaqişəsi zonasındakı təhlükəli durumun fərqindədir və situasiya daha genişmiqyaslı müharibəyə çevrilməmiş münaqişə tərəflərinə nəzarəti gücləndirməyi hədəfləyib. Bundan ötrü isə problemin həllində hansısa irəliləyişə nail olub, bölgəyə sülhməramlı adı ilə öz hərbi qüvvələrini yerləşdirmək gərəkdir. "Lavrov planı" deyilən həll variantının da ən çox bu hədəfə hesablandığı düşünən ekspertlər kifayət qədərdir.

Ancaq bəllidir ki, bunun üçün ilk növbədə Ermənistanın bir neçə rayonu azad eləməsi lazımdır. İrəvan hakimiyyəti üçünsə bu, siyasi intihara bərabər addım sayılır. Lakin erməni tərəfi özbaşına da deyil.

Ayrı sözlə, Moskva ciddi iradə ortaya qoyarsa, Sərkisyan rejiminin başqa çıxış yolu qalmayacaq. Əks halda, Moskva 2-5 apreldə olduğu kimi, Ermənistanın arxasından müvəqqəti çəkilə, Azərbaycanın əli ilə onun cəzalandırılmasına şərait yarada bilər.

Maraqlıdır ki, 4 günlük müharibədən sonra Moskva İrəvanın israrlarına baxmayaraq, Ermənistana 200 milyardlıq silahı verməyə tələsmir. Bundan ötrü artıq Ermənistanın baş naziri Ovik Abramyan və müdafiə naziri Seyran Ohanyan Moskvada olublar. Bugünlərdə isə müdafiə naziri təzədən Rusiyaya gedəcək. Daha maraqlısı isə odur ki, Rusiya Ermənistana başqa heç bir ölkədən, məsələn, Çindən silah almağa icazə vermir. Bu barədə az öncə erməni rəsmilərindən biri sensasion etirafda da bulunmuşdu.

***

Qısası, belə təəssürat yaranır ki, Kreml 200 milyon dollarlıq silah məsələsini uzatmaqla Ermənistanın ondan nə dərəcədə asılı olduğunu onun özünə xatırlatmaq, 4 günlük müharibədən sonra işğalçı ölkənin özünü Kremlə qarşı ərköyün aparmasına qarşılığını vermək, ona bir daha yerini göstərmək istəyir. Putinin qəfil Bakı səfəri haqda informasiyanı həm də bu xüsusda Ermənistana xəbərdarlıq mesajı kimi qiymətləndirmək mümkündür.

Dünən bu qənaətimizi gücləndirən ilginc hadisə qeydə alınıb. Rusiyanın İrəvandakı səfiri İvan Volınkin Moskva-İrəvan hərbi-texniki əməkdaşlığın səviyyəsi ilə bağlı danışarkən faktiki, ermənilərı pərt edib. Məsələ ondadır ki, jurnalistlər səfirdən Rusiyanın Ermənistana verməli olduğu silahların niyə gecikdiyini soruşublar. Ardınca erməni jurnalistləri səfirlə mübahisəyə girərək xatırladıblar ki, "Qarabağda müharibə gedir, Rusiya isə Azərbaycanı silahlandırmaqda davam edir".

Səfir də "sübut edin ki, Rusiya Azərbaycanı silahlandırır" deyib. Jurnalistlər Rusiya səfirinə baş nazirin müavini Dmitri Roqozinin açıqlamasını xatırladanda diplomat deyib ki, Rusiya Azərbaycana da, Ermənistana da silah satır. Daha sonra Rusiya səfirliyinin ikinci katibi jurnalistlərdən xahiş edib ki, mikrofonları söndürsünlər. Ardınca erməni saytının yazdığı kimi, diplomat "sensasion etiraf"la çıxış edib. **"Bəyəm Ermənistan Dağlıq Qarabağı tanıyıb? Nə qədər ki, tanımayıb, rus silahı Qarabağa girə bilməz"** - səfir bildirib.

***

Belə bir açıqlama sübhə yox ki, ən əvvəl Ermənistana öz vassal yerini və "qırmızı xətləri" göstərməyi özündə ehtiva edir. Yəni Ermənistan kimdi ki, Rusiyanın daxili işlərinə qarışır, ona kimə silah satıb-satmamağı məsləhət görür? Bu bəyanat eyni zamanda İrəvanın separatçı rejimi tanıma məsələsində müstəqil olmadığını ona xatırlatmaqla, ümumən Qarabağ məsələsində həlledici söz sahibliyinin İrəvana məxsus olmadığını onun yadına salır. Bunu Putinin mümkün Bakı səfəri ərəfəsində Rusiyadan Ermənistan iqtidarındakı "Qarabağ klanı"na 9 may "hədiyyəsi" də saymaq olar.

Bu xüsusda tanınmış rusiyalı politoloq Andrey Piontkovski şərhi də yerinə düşür. Ermənistan tərəfindən Dağlıq Qarabağın "müstəqilliyinin" tanınması mümkünlüyünü Rusiyaya qarşı cəsarət nümunəsi kimi qiymətləndirən ekspert deyib: **"Əgər söhbət Ermənistan tərəfdən birtərəfli qaydada tanınmaqdan gedirsə - axı başqa heç kim onu tanımağa hazırlaşmır, - bu, İrəvanın Moskvaya qarşı çıxmaq cəsarəti demək olacaq. Ermənilər Rusiyanın bir çox hərəkətlərinə, o cümlədən Kremlin Bakını silahla təchiz elədiyinə görə ondan narazıdır. Budur, indi onlar bir azca uduzan kimi barmaq qıcadılar. Cavabında isə Moskva onlara təpinməli oldu".**

Ancaq belə görünür, təpinmələr hələ bitməyib. Ən azı ona görə ki, Putinin Bakı səfəri ləğv olunmayıb.

❑ **Siyasət şöbəsi**

# Rusiya prezidentindən Bakıya şifrəli bayram təbriki

## Ekspertlər Şuşanın işğalının ildönümü ərəfəsində Bakıya gələcəyi barədə xəbər yayılan Rusiya prezidentindən gözləntilərini bölüşdülər;: "Qarabağ münaqişənin həlli ilə bağlı Putin planının ümumi konturları hazırdır..."

**Rusiya prezidenti Vladimir Putin Bakıya planlaşdırdığı səfərini təxirə salıb. Bu barədə virtualaz.org saytı xəbər yayıb. Qeyd edək ki, sayt ötən şənbə Rusiya hakimiyyətinə yaxın mənbələrə istinadən Putinin Azərbaycan paytaxtına bir günlük səfər etmək niyyətində olduğu barədə məlumat yaymışdı. Mənbənin bildirdiyinə görə, Putinin səfəri bilavasitə Qarabağ münaqişəsinin tənzimlənməsi prosesi ilə bağlıdır.**


Üzeyir Cəfərov


İlham İsmayıl


Elxan Şahinoğlu

Lakin Rusiya-Azərbaycan parlamentlərarası qrupdan sayta bildirildiyinə görə, Rusiya prezidenti Vladimir Putin Bakıya səfərini təxirə salıb. "Söhbət səfərin ləğvindən getmir. Prezident Bakı səfərini sadəcə təxirə salıb", - mənbə deyib. Bununla birgə, mənbə əlavə edir ki, yekun qərar Vladimir Putinin həm Azərbaycan hakimiyyəti, həm də Ermənistan iqtidarı ilə məsləhətləşmələrindən sonra veriləcək.

**Hərbi ekspert Üzeyir Cəfərov** öz facebook səhifəsində bu mövzudan bəhs edib. O, Rusiyanın narahat olduğunu vurğulayıb: "Bunlar bərk narahatdılar ki, birdən bizimkilər rusun ən azından 2049-cu ilə kimi forpostu olan Ermənistanı silah gücünə ağıllandırmaq əməliyyatına başlayar, xaçiklərin qınağından çıxa bilməzlər". **Ancaq Ü.Cəfərov hesab edir ki, Qarabağ məsələsinə görə Putinin Azərbaycana gəlməsinə zərrəcə ehtiyac yoxdur:** "Bu yoldaş istəsəydi, Qarabağ düyünü lap çoxdan həllini tapmışdı". Ekspertə görə, Putinin Bakıya gəlməsi ilə nə isə düzəlməyəcək: "Məncə, Putinin bu dəfə məsələyə özünün qatılması heç də saf, xoş niyyətdən xəbər vermir. Bunlar ermənilərlə əlbir olub çox vicdansız, qara niyyətlərlə dolu bir planı həyata keçirmək istəyirlər. Vaxt udub Azərbaycanı Qarabağ problemi ilə həm sınağa çəkmək, həm də bizə əlavə problemlər yaratmaq üçün mümkün olan nə varsa, onu da ediblər və edirlər. Ona görə də Putin Bakıya gəlməsə, daha yaxşı olar".

Milli təhlükəsizlik xidmətinin sabiq əməkdaşı İlham İsmayıl da bu qənaətdədir ki, Putinin Bakıya gözlənilməz səfərə hazırlaşdığı ilə bağlı yayılan xəbərlər təsdiqini tapacağı təqdirdə məsələ əsas müzakirə mövzularından olacaq və o, İlham Əliyevi bundan imtina etməyə razı salmağa cəhd edəcək: "Azərbaycan və Türkiyə arasında hərbi ittifaq olmasa da hərbi əməkdaşlıq yüksək səviyyədədir. Hərbi əməkdaşlığın hərbi ittifaq müstəvisinə keçməsinə hüquqi baza isə Azərbaycan və Türkiyənin imzaladığı strateji müttəfiqlik sənədidir. Azərbaycan ərazisində Türkiyə hərbi bazasının yerləşdirilməsi mümkündür və ilk bazanın Naxçıvanda yerləşdirilməsi realdır. Naxçıvana hər hansı kənar dövlətin hərbi müdaxiləsində də Türkiyənin onu müdafiə etmək hüququnun olduğu Qars müqaviləsində əksini tapıb. Dağlıq Qarabağ ətrafından kənarda, məsələn, Ermənistan-Azərbaycan sərhədində də Türkiyə hərbi bazasının yerləşdirilməsi mümkündür. Türkiyənin NATO üzvü olması onun başqa ölkənin ərazisində hərbi baza yerləşdirməsini qadağan etmir. Bu işdə yeganə əngəl Rusiyadır. Rusiya öz sərhədlərinə yaxın yerdə, Türkiyə ilə münasibətlərinin kəskin bir dövründə Türkiyənin hərbi bazasının yerləşdirilməsini sükutla qarşılamayacaq və mane olacaq. Putinin Bakıya gözlənilən səfəri də mümkündür ki, elə bu məsələ ilə bağlı olsun" (moderator.az).

**Politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a bildirdi ki, Rusiya prezidentinin Bakıya səfəri baş tutarsa, burada çox ciddi məsələlərdən bəhs olunacaq:** "Putinin Bakıya bir neçə saatlığına qəfil səfər edəcəyi xəbəri təsdiqlənərsə, çoxlarının beynində bu sual dolaşacaq: Bakıya o, hansı təkliflə gəlir? Bir neçə versiyam var. Birinci versiya ondan ibarətdir ki, Qarabağ münaqişənin həlli ilə bağlı Putin planının ümumi konturları hazırdır və o, bu planın detalları ilə azərbaycanlı həmkarını tanış etmək istəyir. Aydındır ki, Putin bu planını erməni həmkarına da təqdim etməlidir. Ona görə də plan müzakirə olunduğu müddətdə Putin hər iki tərəfdən atəşkəsə riayət etməyə çağıracaq. Görünür, Putin də hiss edir ki, yaxın aylarda bölgədə böyük müharibə başlaya bilər. O isə Cənubi Qafqazda başlana biləcək müharibədən ehtiyat edir, Suriya və Ukraynada məsələlər bitməmiş cənub istiqamətində də enerjisi itkisindən qorxur. Çünki Qərb pusqudadır, Rusiyanı zəiflətmək üçün düyməyə basıb. İkinci versiyam budur ki, Putin keçmiş prezident Dmitri Medvedyevin Kazan planını yenidən bizə sırımağa çalışacaq, xarici işlər naziri Sergey Lavrovun "atəşkəsə riayət olunmalıdır", "insidentlər araşdırılmalıdır" kimi çeynənmiş fikirlərini xatırladacaq. Doğrusu, nə statusun müəyyənləşməsini nəzərdə tutan Kazan planı, nə də Putinin hazırladığı və ya hazırlayacağı yeni cızmaqaranın Azərbaycanın maraqlarına xidmət etdiyini və ya edəcəyini düşünürəm. Ona görə də yeni eyni fikrimdə qalıram: doğru bildiyimiz yolla getməli, "bu addımı atsaq Kreml nə deyəcək" sualı ilə daima beynimizi məşğul etməməliyik".

Yeri gəlmişkən, Putin 2-ci Dünya müharibəsindəki qələbənin 71-ci ildönümü münasibətilə Azərbaycan prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubunda "İndiki nəsillərin borcu bu dəhşətli müharibədə həlak olanların parlaq xatirəsini qayğı ilə qoruyub saxlamaq və keçmişin faciəli hadisələrinin təkrarlanmasına yol verməməkdir" - deyə, bildirib. Diqqətçəkicidir ki, Rusiya prezidenti bu məktubu 8 mayda, Şuşanın işğalının ildönümündə yazıb. Hansı ki, neçə gündür mətbuat Azərbaycan ordusunun 8-9 mayda Ermənistana sarsıdıcı zərbə vuracağı barədə xəbərlər yayır, erməni rəsmiləri Azərbaycanın bütün cəbhəboyu, hətta Naxçıvan istiqamətində əlavə hərbi texnika cəmlədiyi barədə həyəcanla danışırdılar. Ola bilsin ki, Putin, sadəcə, "gəlirəm" xəbərini dövriyyəyə buraxmaqla işğalçını bu mərhələdə də Azərbaycanın qəzəbindən qorumaq istəyib. Onun azərbaycanlı həmkarına "keçmişin faciəli hadisələrinin təkrarlanmasına yol verməməkdir"- şifrəli mesajı da bundan xəbər verir.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 100 (6421) 10 may 2016

**101 yaşlı akademik İsmayıl İbrahimov İkinci Dünya müharibəsinin iştirakçısı olan və həyatda qalan azsaylı veteranlardan biridir. Müharibədən salamat qayıtması da, bu yaşa qədər gəlib çatması da onun fikrincə, bir təsadüfdür. Bəlkə də İkinci Dünya müharibəsi iştirakçılarından sağ qalanlar arasında ən qocamanı İsmayıl İbrahimov özlüyündə canlı bir tarixdir.**

# Leninqradın mühasirəsini görmüş azərbaycanlı veteranın hekayəti

## 101 yaşlı İsmayıl İbrahimov: "İki boşqab şorba, 100 qram çörək, bir parça qənd verirdilər..."

Ömrünün ən fəal dövrünü sovet hakimiyyəti illərində yaşayan, hər zaman yüksək vəzifələrdə çalışan, SSRİ Nazirlər Sovetinin sədr müavini vəzifəsinə qədər yüksələn qəhrəmanımız indi bir insan ömrü üçün möcüzə sayılacaq yaşdadır.

Musavat.com olaraq, 6 il müharibədə vuruşan, bir yara belə almadan vətənə dönən İsmayıl İbrahimovun həyat tarixçəsini vərəqləməyə çalışdıq. Onunla görüşümüz metronun "Sahil" stansiyası yaxınlığındakı evində baş tutdu.

101 yaşın gətirdiyi qocalıq əlamətlərinə rəğmən bizi görərkən ayağa qalxıb, salamlaşdı. İlk təəssüratımız onun bu yaşda belə etiket qaydalarını gözləməsi, çətinliklə də olsa, nəticələri yaşda olan qonaqları qarşısında ayağa qalxması ilə yarandı.

Söhbətimiz saatlar çəkdi. Zaman-zaman yaddaşının dərin qatlarında ilişib qalan xatirələrini təzələyib bizə danışan İsmayıl babanın həyatından kimlər keçməyib...

Akademik İsmayıl İbrahimov Azərbaycanın ilk informatika alimidir, nəzarət ölçü cihazları üzrə ilk mütəxəssisdir. 20 il Azərbaycan Dövlət Neft-Kimya İnstitutunun *(indiki Dövlət Neft Akademiyası)* rektoru olan İsmayıl İbrahimov həm də Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışıb. Bu illərdə birinci katib olan Vəli Axundov və Heydər Əliyevlə yaxın dost olub. Sosialist Əməyi Qəhrəmanı və "Şərəf" ordeni laureatıdır.

Söhbətimizə müharibədən başlayırıq...

### "Müharibənin bu qədər uzun çəkəcəyini təsəvvür etmirdik"

**İsmayıl İbrahimov 75 il öncəyə qayıdıb, müharibə haqqında ilk xəbəri eşitməsi və bir neçə gün sonra könüllü cəbhəyə yola düşməsindən danışır:** "1941-ci il iyunun 22-də müharibənin başlamasını radiodan, SSRİ hökumətinin sədri Molotovun çıxışından eşitdim. O zaman bizi gözləyən fəlakətin ağırlığını başa düşmürdük. Qələbə çalacağımıza inanırdıq, amma müharibənin bu qədər uzanacağı ağlımıza belə gəlməzdi. Daha sonra radiodan Stalinin müraciətini eşitdim. Könüllü hərbi komissarlığa yollandıq. Bizi qatarla Biləcəriyə apardılar, oradan yük vaqonlarına minib Tiflisdən və İrəvandan gələn çağırışçıları gözlədik. Biz ali məktəb tələbələri olduğumuz üçün sıravi



əsgər kimi müharibəyə apardılar, ixtisasımıza uyğun olaraq, hərbi akademiyaya yolladılar. Leninqradda ilk dəfə müharibə dəhşətlərini gördüm. Təhlükəli anlar yaşadıq. Burada Budyonnı adına Hərbi Elektrotexnik Akademiyasında hava müşahidəsi, xəbərdarlığı və rabitə avtomatikası kursları keçdik.





İnstitutda nəzarət-ölçü cihazları və avtomatik idarəetmə ixtisası üzrə təhsil aldığımdan bu kurs mənim üçün çox faydalı oldu. Ancaq kursu başa çatdıra bilmədik. Leninqrad mühasirəyə alındı. Mühasirədə qalmağın nə demək olduğunu yaşamayan bilməz. Ardıcıl atılan toplar, partlayan bombalar, kəşfiyyatçıların şəhərə soxulması - bunları ilk dəfə yaşayan adam üçün çox dəhşətlidir. Bundan başqa, şəhərdə hökm sürən aclıq da insanı əldən salırdı. Ən yaxşı halda gündə iki dəfə səhər -axşam iki boşqab şorba, 100 qram çörək, bir parça qənd verirdilər. Müharibə dövründə qeyri-adi hal odur ki, insanların iştahı da qeyri-adi dərəcədə çox olur. Bəzən 3-4 kursantın payını yeyib doymayan döyüş yoldaşlarımız olurdu".





### "Biz cənublular dəhşət üşüyürdük"

**İsmayıl baba müharibədə dəfələrlə ölümdən döndüyünü, lakin bir qəlpə yarası belə almadığını deyir:** "1941-ci ilin noyabrında Novorossiyskə, oradan Krıma keçdik. Orada Kerç limanında əsgərlərimiz almanlarla savaşırdı. Bu mənim müharibə boyunca gördüyüm ən ağır döyüş oldu. Biz bir neçə telefonçu ilə çətinliklə yeni qala mayakını tapa bildik. Hərbi hissələrimizlə əlaqəmiz itdi. Sonra komandirlərdən biri məni tapıb iki kəşfiyyatçı ilə mənə ən yaxşı yaşayış məntəqəsinin kimin əlində olduğunu öyrənməyi tapşırdı. Almanlar bizi güllə atəşinə tutdular, çətinliklə xilas olduq. Səhər açılanda bizimkilərdən çoxunun qurtulduğunu gördük. Qarlı şaxtalı havada, biz cənublular əynimizdə bir şinel, başımızda da yay papağı, bərk üşüyürdük".

### "Stalin bizim döyüşdən danışdı"

**Qəhrəmanımız 77-ci diviziyanın batalyon komandiri olaraq, Krımın və Sevastopolun azad edilməsində iştirak edib, müharibə bitəndən bir il sonra vətənə dönüb:** "Silahlı qüvvələrin tərkibində bir sıra sovet dövrünün ilk illərində yaranmış milli hərbi qurumlar vardı, 77-ci Azərbaycan diviziyası onlardan sayılırdı. Tərkibində çoxlu azərbaycanlı komandir, siyasi işçi və əsgərlər vardı. 276-cı alayın komandiri polkovnik S. Rəhimov, diviziya komandirinin müavini polkovnik H. Qazızadə, siyasi şöbə rəisi polkovnik H. Cavadov, şairimiz İslam Səfərli , yüzlərlə döyüşçü və komandirlər yadımda idi. Mən Krımın və Sevastopolun azad edilməsində iştirak etmişəm. Bu elə bir döyüş idi ki, hətta Stalin bir çıxışında onu strateji zərbələrdən biri adlandırmışdı. Ən ağır döyüş Sevastopolun girəcəyində Sapun dağı ətrafında oldu. Düşmən əlverişli mövqelərdə, biz isə aşağıda idik. Biz irəliyə gedib vəziyyəti telefonla əsgərlərə xəbər verirdik. Döyüş günlərlə davam etdi və nəhayət, 1944-cü ilin mayında Sevastopola girdik.

Sonradan orada, Sapun dağda Azərbaycanın könüllülərindən təşkil olunan 77-ci Azərbaycan diviziyasının şərəfinə abidə ucaldıldı. Eləcə də Taqanroqda 416-cı Azərbaycan diviziyasının döyüşdə göstərdiyi igidlik əbədiləşdirildi".

Müsahibim deyir ki, sovetlər qələbə çaldıqdan sonra rabitə batalyonunun komandiri kimi 1 il də orduda qalıb, Yaponiya ilə savaşda iştirak edib.

### Batalyon komandiri necə rektor olur?

**İsmayıl müəllimə dəfələrlə yüksək vəzifələr təklif olunsa da, o elmi, təhsili seçir və uzun illər hazırkı Neft Akademiyasında rektor vəzifəsində çalışır:** "Müharibədən qayıdıb, diplomumu almağa gedəndə institutun partiya katibi mənimlə tanış olub rektorun yanına apardı. Dedi ki, bu, Azərbaycanın nəzarət-ölçü cihazları üzrə ilk mütəxəssisidir. Müharibədə də bu istiqamətdə xeyli fəaliyyət göstərib, odur ki, qalıb burada dərs desin. Rektor razılaşdı, amma kafedra müdirini də çağırıb məni işə qəbul etməsini tapşırdı. Kafedra müdiri dedi ki, onun burada dərs deməsi üçün bir il istehsalatda işləməsi vacibdir. Mən də gedib amerikalıların Bakıda açdığı Neft Emalı Zavodunda işlədim. Qayıdandan sonra məni baş laborant kimi işə qəbul etdilər. Sonra universitetin "partkomu" oldum. Rektor pilləsinə qədər qalxdım. Düz 10 il rektor vəzifəsində çalışdım. Daha sonra Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi gələndə məni Nazirlər Soveti sədrinin müavini vəzifəsinə təyin etdi. 18 il də o postda çalışdım. 65 yaşım olanda Heydər Əliyevin yanına gedib dedim ki, yenidən müəllimliyə qayıtmaq istəyirəm. Bu söhbətdən sonra yenidən Neft-Kimya İnstitutuna rektor təyin olundum. 10 il rektor işlədim. Sonra yaşla bağlı qanun çıxdı və rektor vəzifəsindən getməli oldum.

### Vəli Axundovla dostluq...

İsmayıl İbrahimov 1959-1969-cu illərdə Azərbaycana rəhbərlik edən Vəli Axundov və ondan sonra birinci katib vəzifəsinə gələn Heydər Əliyevlə yaxın dost olub. Müsahibimiz danışır ki, Vəli Axundovla daha yaxın dost olub. Texnikumda bir yerdə oxuduğu şəxslə sonradan bir yerdə respublika rəhbərliyində işləyiblər.

Bir neçə dəqiqəyə oxuduğunuz müsahibə üçün İsmayıl müəllimi saatlarla dinləməli olduq. O, tez-tez yorulur, sözünü unudur, xatirələr dünyasında ilişib qalırdı. Bəzi məqamlar özünün yaddaşından silinsə də, müəllifi olduğu "Həyatımın səhifələrindən" kitabında yaşayır. İsmayıl müəllimi çox yormur, onunla sağollaşıb ayrılırıq. Bizi yola salmaq üçün çətinliklə də olsa, ayağa qalxır və bir daha bizi səmimiyyəti, yüksək mədəniyyəti qarşısında heyran qoyur... Üzərində 101 illik ömründə qazandığı orden və medalların ağırlığını daşıyan pencəyi isə onun necə uğurlu bir həyat yolu keçdiyinin şahidi kimi görünür.

***

Qeyd edək ki, ölkəmizdə İkinci Dünya müharibəsi iştirakçılarına və onların ailələrinə dövlət dəstəyi bu gün də davam edir. Hər il İkinci Dünya müharibəsində qələbənin ildönümü ərəfəsində prezident İlham Əliyevin həmin müharibənin iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin ailəsinə, arxa cəbhədə fədakarlıq göstərmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi barədə sərəncam imzalayır. Ödənilən birdəfəlik maddi yardımların məbləği də ildən-ilə artırılır. Ötən illə müqayisədə cari ildə bu artım 25 faiz təşkil edib və müvafiq olaraq veteranlar üçün 800 manatdan 1000 manata, arxa cəbhədə döyüşənlər üçün 400 manatdan 500 manata qaldırılıb.

Ümumilikdə Azərbaycan MDB-yə üzv ölkələr arasında 1941-1945-ci illər müharibəsi iştirakçılarına ən yüksək məbləğdə birdəfəlik maddi yardım verən ölkədir. Azərbaycan manatı ilə ifadə etdikdə, bu məbləğ Rusiyada 232 manat, Qazaxıstanda 690 manat, Özbəkistanda 416 manatdır.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Apreldəki 4 günlük müharibədən sonra sülh danışıqlarının tezliklə və daha effektli məcrada bərpa olunacağına bəslənən ümidlər doğrulmadı. İşğalçı Ermənistanın yeni və absurd şərtlər irəli sürməsi, Rusiyanın isə ona ciddi təzyiqlər göstərməməsi danışıqları dalandan çıxarıb konstruktiv məcraya yönəltməyə imkan vermədi. Bu isə münaqişə zonasında yeni və daha genişmiqyaslı hərbi toqquşmanın qaçılmazlığı deməkdir.**




# "Müharibə, yoxsa sülh" seçimini edəcək tərəf - Ermənistan

## Düşmən ölkə işğal rejimini uzatdıqca, özünün siyasi mövcudluğunun ömrünü qısaldır; Azərbaycan təcavüzkarı vahiməyə salan silahların istehsalına başlayır; **İrəvandakı Rusiya səfiri erməniləri pərt elədi:** "Rus silahı Qarabağa girə bilməz..."

Doğrudur, bu arada Rusiya xarici işlər naziri Sergey Lavrov, ardınca isə Rusiya XİN-in rəsmisi Mariya Zaxarova yaxın zamanlarda Dağlıq Qarabağa dair danışıqların bərpa ediləcəyinin anonsunu veriblər. Lakin bu açıqlamalarda konkret tarix yoxdur. Bunun da başlıca səbəbi, deyildiyi kimi, erməni tərəfinin hələ də maksimalist mövqe tutması ilə bağlıdır.

**Ermənistan XİN başçısı Edvard Nalbəndyanın son açıqlaması buna şübhə yeri saxlamır. Erməni nazir jurnalistlərə bildirib ki, danışıqlarda əsas məqsəd regionda yeni zorakılıq hallarının qarşısının alınmasıdır.** "Hazırda mümkün ola biləcək görüşlərin məqsədi aprel ayında baş vermiş toqquşmaların təkrarlanmasının qarşısının alınmasına, müddətsiz atəşkəs rejiminin qorunmasına və atəşkəsin pozulması hallarının araşdırılması mexanizmlərinin yaradılmasına yönəldilməlidir" - Nalbəndyan deyib.

***

Yəni erməni tərəfini ən çox atəşkəsin qorunması, ayrı sözlə, hər hansı konstruktivlik göstərmədən işğal rejimini saxlamaq maraqlandırır. Bu isə təbii ki, Azərbaycanı qane edə bilməz. Azərbaycan işğalın bitməsi üçün 22 il dinc danışıqlarda səbirlə iştirak edib və daha neçə il boşuna gözləmək fikrində deyil. 4 günlük müharibənin təcavüzkar ölkəyə, vasitəçi dövlətlər və beynəlxalq birliyə əsas mesaj-xəbərdarlığı da elə məhz bu idi.

Bu xəbərdarlığın qulaqardı edilməsi tezliklə münaqişə bölgəsində qat-qat böyük hərbi eskalasiyanın başlaması demək olacaq. Bu barədə az qala hər gün siyasi və hərbi ekspertlər xəbərdarlıqlar eləməkdədir. Son olaraq ABŞ-dakı Kornegi Fondunun analitiki, Qarabağ münaqişəsi üzrə mütəxəssis Tomas de Vaal "Politoco Europe" qəzetində dərc etdiyi məqaləsində müharibə perspektivi haqda yazıb.

Onun fikrincə, sülh danışıqlarında tezliklə irəliləyiş əldə edilməsə, Azərbaycanı qane etməyən təkliflər irəli sürülsə, böyük hərbi əməliyyatlar başlayacaq. O, təxmini tarix də söyləyib - Bakıda keçiriləcək "Formula-1" yarışlarından sonra, iyunun sonlarında yeni müharibə alovlana bilər. "Mübaliğəsiz deyə bilərəm ki, Azərbaycan və Ermənistan Bosniya münaqişəsinin 2-3 addımlığındadır. Bu isə bütün region üçün zərərli ola bilər" - analitik bir daha xəbərdarlıq edib.

"Aprelin 2-də atəşkəsin pozulması böyük çata səbəb oldu. Böyük ehtimalla, Azərbaycanın məqsədi Ermənistan ordusunun müdafiəsini yoxlamaq və erməniləri danışıqlar masasına daha zəif halda oturtmaq olub. Azərbaycan ordusu işğal altında olan ərazilərin bir hissəsini azad etdi və sağlam qüruru yenidən bərpa etdi" - Qarabağ üzrə mütəxəssis yazır.

***

"Formula-1"dən sonra genişmiqyaslı əməliyyatların başlama ehtimalı barədə ilk dəfə "Yeni Müsavat" yazıb. Onu da qeyd eləmişik ki, böyük müharibədən qaçmağın bir yolu var - o da işğalçı Ermənistanın nəhayət ki, konstruktiv mövqeyə gəlib nəzarətindəki ərazilərin heç olmasa, bir hissəsini ön şərtsiz azad eləməyə hazır olmasıdır. Yəni sülh, yoxsa müharibə seçiminin ilk növbədə təcavüzkar edəcək. O da artıq aydındır ki, Ermənistan işğal rejimini uzatdıqca, dövlət olaraq, öz siyasi mövcudluğunun ömrümü qısaldır.

İşğal faktı qalana qədər isə Azərbaycan təcavüzə uğrayan tərəf kimi öz hərbi-müharibə hazırlıqlarını gücləndirmək haqqına sahibdir. Bu yöndə addımlar ilbəil artmaqdadır. Cəbhə xəttinə yaxın bölgələrdə təzəcə başa çatmış növbəti hərbi təlimlər buna sübutdur. Dünən isə bəlli olub ki, Azərbaycan həmçinin, erməniləri vahiməyə salan silahların istehsalına başlayır. Belə ki, iri hərbi texnikaların idxalı ilə yanaşı, artıq onun ölkədə geniş istehsalı da planlaşdırır.

**"Aprel döyüşlərindən sonra Ermənistan ordusunu vahiməyə salan, hədəfi vurmaq gücündə olan pilotsuz uçuş aparatlarının (PUA) Azərbaycanda istehsalına başlanılacaq". Bunu ANS TV-yə eksklüziv açıqlamasında müdafiə sənayesi naziri Yavər Camalov deyib. Onun sözlərinə görə, yaxın üç ay ərzində "Zərbə" adlı yeni nəsil PUA-nın sınaqlarına start veriləcək:** "Azərbaycan artıq müxtəlif mənzilli raket texnologiyalarının istehsalına da başlayacaq. Bütün silah-sursatın istehsalı üçün ölkəmizdə zavodun açılması planlaşdırılır".



**Nazir bildirib ki, artıq iyun yaxud iyul ayının sonlarına həmin zavodun açılışını planlaşdırırlar:** "İyul ayının axırından sonra da Azərbaycan Silahlı Qüvvələrində olan bütün artilleriya və tanklar üçün döyüş sursatları istehsal olunacaq. 100, 122, 130, 152 və 155 millimetrlik bütün döyüş sursatları da ölkəmizdə istehsal ediləcək. Bu da bizim bütün silahlanmada olan altilleriya və tankların tam şəkildə döyüş sursatları ilə təminatına şərait yaradacaq".

**Yavər Camalov müxtəlif mənzilli raket texnologiyalarının da ölkəmizdə istehsalının planlaşdırıldığını qeyd edib. Nazir bildirib ki, qarşıya qoyulan əsas tapşırıqlardan biri müxtəlif mənzilli idarəolunan raketlərin texnologiyasının Azərbaycana gətirilməsi və onların burada istehsalıdır:** "Yer-yer, hava-yer və hava-hava". Bu istiqamətdə elmi tədqiqat institutu işləyir. Bundan başqa həmin texnologiyanın Azərbaycana gətirilməsi istiqamətində də bir sıra ölkələrlə danışıqlar gedir. Türkiyənin "Raketsan" şirkəti ilə bu istiqamətdə danışıqlar aparılır. Cənubi Afrikanın müvafiq şirkəti ilə də danışıqlar davam etdirilir. Bundan başqa, Malayziyada yerləşən Braziliya şirkətlərindən biri də razılıq verdi ki, onlar bu texnologiyanı Azərbaycana ötürməyə hazırdırlar".

***

İşğalçı Ermənistan da xüsusən 4 günlük savaşdan sonra öz hərbi təchizatını gücləndirməyə səy edir - təbii ki, Azərbaycandan fərqli olaraq, əsasən Rusiyanın ucuz və kreditə verdiyi silahlar hesabına. Yeri gəlmişkən, dünən Rusiyanın İrəvandakı səfiri İvan Volınkin Moskva-İrəvan hərbi-texniki əməkdaşlığın səviyyəsi ilə bağlı maraqlı açıqlama verib. Belə ki, Qələbə günü münasibətilə keçirilən tədbirdə iştirak edən erməni jurnalistlərin suallarına cavab verən diplomat erməniləri pərt edib (virtualaz.org).

Məsələ ondadır ki, jurnalistlər səfirdən Rusiyanın Ermənistana verməli olduğu silahların niyə gecikdiyini soruşublar. Volınkin isə cavab verib ki, bu gün (9 may -red.) bayramdır və jurnalistlər bu mövzuda sual versələr yaxşıdır. Erməni jurnalistləri isə səfirlə mübahisəyə girərək xatırladıblar ki, Qarabağda müharibə gedir, Rusiya isə Azərbaycanı silahlandırmaqda davam edir.

Səfir isə "sübut edin ki, Rusiya Azərbaycanı silahlandırır" deyib. Jurnalistlər Rusiya səfirinə baş nazirin müavini Dmitri Roqozinin açıqlamasını xatırladıblar. Bu zaman səfir deyib ki, Rusiya Azərbaycana da, Ermənistana da silah satır. Daha sonra Rusiya səfirliyinin ikinci katibi jurnalistlərdən xahiş edib ki, mikrofonları söndürsünlər. Ardınca erməni saytının yazdığı kimi, diplomat "sensasion etiraf"la çıxış edib.

**"Bəyəm Ermənistan Dağlıq Qarabağı tanıyıb? Nə qədər ki, tanımayıb, rus silahı Qarabağa daxil ola bilməz"** - səfir bildirib.

**Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin isə yeni Qarabağ müharibəsinin mümkünlüyündən danışarkən deyib ki, "Rusiya konfliktin beynəlxalq hüquq normaları və bölgədə yaşayan insanların maraqları çərçivəsində dinc və ədalətli nizamlanmasının tərəfdarıdır". Səfirin sözlərinə görə, Kremlin məsələ ilə bağlı mövqeyi dəfələrlə ortaya qoyulub. "Həmin mövqeyi XİN başçısı və prezidentin mətbuat katibi də səsləndirib"** - diplomat əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**Beynəlxalq Bankı xilas etmək üçün dövlət büdcəsindən Mərkəzi Banka (MB) ayrılan 3 milyard manat borc 2045-ci ildə qaytarılacaq. Mərkəzi Bankın ötənilki fəaliyyət hesabatında belə yazılıb. Hesabat Mərkəzi Bankın saytında dərc olunub. Bu haqda "Bizim Yol" qəzeti məlumat yayıb. Hesabata əsasən borcun 2.5 milyardı artıq 2015-ci ildə götürülüb, yerdə qalan 500 milyon manat isə çox güman, bu il alınacaq. Borc illik 0.15 faizlə cəlb edilib.**

# Cahangir Hacıyev dövləti 3 milyard xərcə salıb

## Beynəlxalq Bankı müflis durumdan çıxarmaq üçün dövlət büdcəsindən 2 milyard 500 milyon ödənilib

Yarıdan çoxu dövlətə məxsus olan Beynəlxalq Bank keçmiş rəhbəri Cahangir Hacıyev və onun komandasının idarəçiliyi dövründə iflic vəziyyətə salınıb. Bankın milyardlarla manat aktivləri iqtisadi perspektivləri olmayan layihələrə ayrılıb. Kreditlər offşor mexanizmlərlə problemli, geri qaytarılması mümkün olmayan şəklə salınmaqla mənimsənilib. Nəticədə ölkənin ən iri bankı müflis olma təhlükəsi qarşısında qalıb. Hazırda Beynəlxalq Bank işi üzrə istintaq davam edir, Cahangir Hacıyev və bankın talanmasına görə məsuliyyət daşıyanların bəziləri həbsdədir.

Prezident İlham Əliyev ötən il iyulun 15-də Beynəlxalq Bankın müflis olmasının və beləliklə də ölkənin maliyyə sistemində böhran yaranmasının qarşısını almaq üçün bankın maliyyə durumunun sağlamlaşdırılması və dövlətə məxsus səhmlərin özəlləşdirilməyə hazırlanması haqqında fərman imzalayıb.

Fərmanda deyilirdi ki, son illər bankın idarə edilməsində və investisiya-kredit siyasətində yol verilmiş nöqsanlar, o cümlədən səmərəsi aşağı olan riskli investisiya layihələrinin maliyyələşdirilməsi bankın maliyyə vəziyyətinin pisləşməsinə, problemli aktivlərinin artmasına və likvidliyinin daralmasına səbəb olub.

Bu səbəbdən problemli aktivlər BB idarəçiliyindən çıxarılaraq ixtisaslaşmış quruma - dövlətə məxsus "Aqrarkredit" QSC bank olmayan kredit təşkilatına verilib. Habelə banka dövlət büdcəsi hesabına güzəştli borc verilib. Göründüyü kimi, dövlətin Beynəlxalq Banka ayırdığı borc uzunmüddətlidir, illik cəmi 0.15 faizlə verilib və hazırda beynəlxalq maliyyə bazarlarında bu cür güzəştli şərtlərlə vəsait tapmaq mümkün deyil.

Ancaq Azərbaycan dövləti Cahangir Hacıyevin və onun daxil olduğu mafiyanın vurduğu ziyanın nəticələrini aradan qaldırmaq üçün həmin 3 milyard dolları simvolik faizlə banka borc verməli olub.

Ölkənin ən böyük bankını müflisləşməkdən qurtarmaq üçün dövlət büdcəsindən 3 milyard manat demək olar ki, faizsiz kredit ayrılması nə dərəcədə uyğun addımdır?

Dövlət Cahangir Hacıyevin və onun komandasının, havadarlarının əvəzindən bunca vəsaiti Beynəlxalq Banka ödəməlidirmi?

Həmin vəsaiti iqtisadiyyata səmərə gətirəcək sahələrə yönəltmək daha düzgün olmazdımı?

**"Güzaran" Sosial Araşdırmalar Mərkəzinin rəhbəri, tanınmış iqtisadçı Qadir İbrahimli deyir ki, Beynəlxalq Bank ölkənin bank sektorunda kifayət qədər aparıcı mövqeyə sahib olub. Ölkə üzrə bank aktivlərinin 70 faizi**



Cahangir Hacıyev

**Beynəlxalq Bankın payına düşüb:** "Belə bir bankın ziyana düşməsi, çökməsi bütövlükdə bank sektorunda çox ciddi problemlər yarada bilərdi. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Beynəlxalq Bankda dövlətin 51 faizlik payı qalır. Bu baxımdan dövlət təsisçi və mülkiyyətçi olaraq baş verənlərə seyrçi mövqe sərgiləyə bilməzdi".

**Q.İbrahimli deyir ki, hazırda bank sektorunda vəziyyət ürəkaçan deyil. Belə bir vəziyyətdə Azərbaycanın bank sektorunda dövr edən maliyyədə 70 faizlik paya sahib bankın çökməsinin qarşısının alınması zəruridir:** "Əgər bu addım atılmasaydı, ümumilikdə bank sektoru sarsılar, ölkə üçün arzuolunmaz nəticələrə gətirib çıxarardı. Dövlət təsisçi, mülkiyyətçi olaraq bu qərarı verib və düşünürəm ki, qərar rasional qərardır".

**Q.İbrahimli deyir ki, 3 milyardlıq sərmayənin iqtisadiyyatın digər sahələrinə yönləndirilməsi haqda fikirlərə də münasibət bildirib:** "Əgər Beynəlxalq Bank çevik fəaliyyətini bərpa edə bilsə, 3 milyard həmin səmərəli sahələrə kredit şəklində ayrılar. Yeni Beynəlxalq Bank kreditləşmə siyasətinə yenidən baxmalı və sağlam kreditləşmə siyasətini yeridib vəziyyətdən çıxmalıdır. Düşünürəm ki, bunu etmək üçün heç bir problem yoxdur. Kredit real sektora ayrılmalıdır. Bu halda Beynəlxalq Bank təkcə özü deyil, ümumilikdə bank sektorunu böhrandan çıxara bilər. Yaxın 15 ildə Beynəlxalq Bank Azərbaycanın bank sektorun əsas banklardan biri kimi qalacaq. Bu reallıqla barışmaq lazımdır".

Xatırladaq ki, Beynəlxalq Bankın səhmlərinin 50,2 faizi Maliyyə Nazirliyində olmaqla dövlət bankı sayılır. Cahangir Hacıyevin rəhbərliyi dövründə Beynəlxalq Bank maliyyə idarəçiliyində kifayət qədər mənfi reputasiya qazanmışdı. Bankın ümumi kredit portfeli 8 milyard manat təşkil etdiyi bir vaxtda bu məbləğin 7,1 milyardı kooperativ, yeni hüquqi şəxslərə verilən kreditlər idi ki, bu da az qala ümumi portfelin 90 faizə yaxınını təşkil edir. Böyük iş adamlarına, dövlət qurumlarına, oliqarxlara verilən bu borclar isə illərlə geri qaytarılmırdı. Nəticədə bank vaxtı keçmiş kreditlərlə bağlı ölkədə ən böyük problem yaşayan banka çevrilmişdi. C.Hacıyev və komandası bankdan uzaqlaşdırılandan və görülən tədbirlərdən sonra vəziyyət dəyişib. "Aqrarkredit" səhmdar kredit təşkilatının (SKT) hesabatına görə, 2016-cı il martın 31-nə olan məlumata əsasən, Azərbaycan Beynəlxalq Bankının 3 mlrd. 459 mln. manat həcmində toksik aktivləri təmizlənib. Hesabata əsasən, cari il aprelin 1-nə dövlət bankından qəbul olunmuş aktivlər və təhvil-təslim üzrə tələblər 3 mlrd. 458,908 mln. manat təşkil edib. Toksik aktivlərin təmizlənməsinə baxmayaraq bankın hələ də 3 mlrd. manatdan çox problemli aktivləri var.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Trampın "ayaq səsləri" gəlir

## İrqçi və müsəlman düşməni ABŞ-ın yeni prezidenti ola biləcəkmi...

**Amerikada prezident seçkiləri kampaniyası getdikcə qızışır. Ohayo ştatı qubernatoru Jon Kasichin də ABŞ prezidentliyinə namizədliyini geri götürüb. Hazırda Respublikaçılar Partiyasından tək namizəd iş adamı Donald Tramp qaldı. Respublikaçılar Partiyasında o biri namizədlərin qarşısında qələbə qazanan Tramp, bundan sonra yalnız Demokratlar Partiyasından namizədlər-sabiq dövlət katibi Hillari Klinton və Vermont senatoru Bernie Sandersinə qarşı yarışacaq.**

Daha bir gəlişmə isə ABŞ Senatının üzvü Con Makkeynin Trampa dəstək verdiyini açıqlamasıdır. Makkeyn Trampın namizədliyinə tərəfdar olduğunu qeyd edərək, onun ABŞ prezidenti postunda uğurlu ola biləcəyini qeyd edib. Bugünlərdə Makkeyn Trampın bəyanatlarına amerikalıların emosional reaksiyasından danışaraq, onun populyarlığını "Kardaşyan effekti" adlandırmışdı.

Xatırladaq ki, senator C.Makkeyn anti-Rusiya ovqatı ilə tanınır və ABŞ-ın bir çox məsələlərdə daha kəskin mövqe tutmasını istəyir. O özü 4 il əvvəl prezidentlik yarışında Barak Obamaya uduzub.

D.Tramp da ABŞ-ın sərt xarici siyasət yeritməsinin tərəfdarıdır, amma bugünlərdə o, Rusiya, Putinlə problemi olmadığını qeyd edib.

Trampla bağlı daha bir məlumat isə onun İndiana ştatında rəqibi Ted Kruza da qalib gəlməsidir. Bu, mayın 4-də elan olunan xəbər idi. BBC-nin şərhində isə qeyd olunur ki, öz partiyasında bir çoxları tərəfindən bəyənilməyən cənab Trampın bu qələbəsi heyrətləndiricidir, belə ki, ötən il bu biznesmen kampaniyaya başlayanda az adam onu ciddi qəbul edirdi.

Texas ştatının senatoru Ted Kruz İndiana ştatında Donald Trampa uduzduqdan sonra öz nitqində bildirib ki, daha Respublikaçılar Partiyasından prezidentliyə namizədlik üçün mübarizə aparmayacaq.

Bundan öncə cənab Kruz Trampı prezident olmağa yararsız olan "yalançı" adlandırıb.

"Yeni Müsavat" xatırladır ki, ABŞ-da noyabrda keçiriləcək prezident seçkiləri ərəfəsində partiyalarda daxili namizəd seçkiləri (praymerz) keçirilir. Bu prosesin əsas məqsədi noyabr ayında aralarında əsas mübarizə gedəcək iki aparıcı partiyanın namizədlərini müəyyən etməkdir.

Cənab Kruzun müşavirləri Trampın seçki yürüşünü dayandırmaq üçün İndiananı hədəfə almışdılar. "Biz əlimizdə olan hər şeyi etdik, lakin seçicilər başqa yolu seçdi" - deyə, Ted Kruz İndianadakı tərəfdarlarına bildirib.

Həmin vaxt İndiana ştatındakı səsvermədə üçüncü yeri tutan John Kasich isə namizədlik yarışında qaldığını elan etmiş, üstəlik, sözçüsü vasitəsilə "bu kampaniyada sonadək davam etmək niyyətində olduğunu" çatdırmışdı..

ABŞ prezidentliyi seçkisinə Respublikaçılar Partiyasından namizədlər arasında lider Donald Tramp İndiana ştatında keçirilən praymeridə qalib gəlib.



Donald Tramp

Əgər Nyu-York milyarderi respublikaçıların iyulda keçiriləcək konventinə qədər 1237 seçki nümayəndəsi toplaya bilsə, qeyd-şərtsiz prezidentliyə namizəd olacaq.

"Reuters" bildirir ki, bunun üçün onun Kaliforniya və Nyu-Cersi ştatlarında qalib gəlməsi kifayətdir.

ABŞ-ın keçmiş prezidentləri ata və oğul Corc Buşlar isə Donald Trampın prezidentliyə namizədliyini dəstəkləməyəcəklər. Respublikaçı siyasətçilər ona dəstəyi müəyyənləşdirməkdə çətinlik çəkirlər. Hər iki Buş Floridanın keçmiş qubernatoru Jeb Buşun namizədliyini dəstəkləyirdilər. O da namizədliyini fevral ayında geri götürüb.

Respublikaçılar ehtiyat edirlər ki, Trampa qarşı olan seçicilər, ümumiyyətlə, Respublikaçılar Partiyasından çəkinə bilərlər.

D.Tramp prezident seçiləcəyi ilk 100 gün ərzində planını açıqlayıb. Onların arasında ABŞ-la Meksika arasında divarın tikilməsi və müsəlmanlara qadağalar da var.

Bu arada Amerika mətbuatı D.Trampın həyat yoldaşı Melania Trampla bağlı maraqlı həqiqəti üzə çıxarıb. Məlum olub ki, Melania Tramp ərinin antmiqrant siyasətində istisna təşkil edir. Miqrantlara qarşı kəskin ritorika ilə danışan cənab Trampın öz xanımı miqrant əsillidir. Melania Tramp ABŞ-a Sloveniyadan gəlib.

Jurnalist Julia Ioffe yazır ki, Melaniya atası Viktor Knavsın ikinci evliliyindən doğulub və onun Denis Cigelnjak adında atabir qardaşı Sloveniyada yaşayır. Denis müxbirlərə bildirib ki, bacıları Melania və İnesi görmək maraqlı olardı, lakin nə atasından, nə də Tramplardan heç nə istəmir.

Bu barədə suala Melania Tramp əvvəlcə inkarla cavab verib, lakin Sloveniya məhkəməsinin sənədləri ona göndəriləndən sonra "bu mənim atamın şəxsi işidir" deyib.

Xatırladaq ki, seçki kampaniyasına başladığı gündən etibarən, irqçi və təhqir dolu fikirlər səsləndirməkdən çəkinməyən Donald Tramp ABŞ-a gələn meksikalıları "təcavüzkar" adlandıraraq, prezident seçildiyi təqdirdə Meksika sərhədini bağlayacağını vurğuyub. Namizədin mübahisəyə səbəb olan ən səs-küylü açıqlaması isə müsəlmanların ölkəyə girişinə qadağa qoyacağı olub.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 100 (6421) 10 may 2016

# Hafiz Hacıyev tapılan erməni oğlundan danışdı... - "AES-i partlatdıracam"

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevin erməni qadınlardan uşaqlarının olması barədə fikirləri rezonans doğurub. Artıq bəzi mətbuat orqanları partiya sədrinin övladlarının axtarışına çıxıblar. Hətta "tapıblar da"...**

## H.Hacıyev: "Vahan Martirosyan Bakıda olarkən..."; "Deyirlər ki, Hafiz Hacıyev Ermənistanda Atom Elektrik Stansiyasını partlatmaq üzrədir"

Belə ki, 28-may.az saytı ötən ilin sentyabrında Bakıya ailəsi ilə birlikdə pənah gətirən Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vahan Martirosyanın Hacıyevin övladı olması ilə bağlı iddialar səsləndiriblər.

**Məsələ ilə bağlı partiya sədrinin özü ilə əlaqə saxladıq. H.Hacıyev bunları dedi:** "Media bizdə azaddır. Belə bir şeyin olduğunu deyə bilmərəm. Sadəcə, saytlar reytinq yığmaq naminə belə xəbərlər verirlər. Qondarma saytların nə yazmağından asılı olmayaraq, sözümün üzərində qalıram. Ermənilərdən övladlarımız çox olub. Onlar daimi qulumuz olublar. Onların belində gəzmişik. İndi fağır Qarabağ taparaq, orada at oynadırlar. Amma vaxtilə biz onların üzərində at oynatmışıq. Zaman gələcək, yenə də belə edəcəyik. Kimin nə yazmasından asılı olmayaraq, erməniləri qapaz altı etdiyimizi bir daha bəyan edirəm. Lazım gəlsə, gedib Xankəndində onların belində gəzəcəyik. Bunun artıq zamanı gəlib. Bizdən törəyən ermənilərə tapşırıq vermişik ki, onların Atom Elektrik Stansiyasını göstəriş verdiyimiz an partladın. Vahan Martirosyan Bakıda olarkən onunla hər hansı bir təmasım olmayıb. Hələ ki onunla əlaqəm yoxdur. Amma müsəlmanlardan törəyənlərdən zamanı gələndə istifadə edəcəyik. Xalqımız bilsin ki, məni növbəti seçkilərdə prezident seçsələr, Xankəndini paytaxt edəcəm. Erməni və rus saytları açıqlamalarımdan narahat olublar. Deyirlər ki, Hafiz Hacıyev Ermənistanda Atom Elektrik Stansiyasını partlatmaq üzrədir. Məndən çox qorxurlar. Məhz açıqlamalarımdan sonra erməni parlamenti istədiyi qərarı son iclasında qəbul edə bilmədi. Biz daim gözləmə mövqeyində olmuşuq, amma bu gün Hafiz Haciyev və tərəfdarları hücuma keçmək niyyətindədirlər. Bizdən olan uşaqlarımıza demişik ki, göstəriş verdiyimiz an Ermənistanda metro stansiyaların partladın, Köçəryanın evini başına uçurun. Hafiz Hacıyev nə dediyini bilir. Xalqım hər şeydən əzizdir. Ermənilər bilsinlər ki, dərslərini verəcəyik, özü də onların içərisində olan kamikadzelər vasitəsilə. Əlimizi yanımıza qoyub oturmamışıq. Lazım gələrsə, mənim özüm də canlı bomba olub, onların içərisinə daxil olub, hamısını partladaram".


Hafiz Hacıyev Vahan Martirosyan

❑ Cavanşir ABBASLI

# Azərbaycanlı tədqiqatçı beynəlxalq elmi ictimaiyyətə səsləndi

## "Mədəniyyətimizə dair məsələlər indiyə qədər beynəlxalq elm aləmində qeyri-obyektiv yazılıb"






**10 ilə yaxın Qafqaz, Rusiya, Avropa muzeylərində, arxiv və fondlarında Xocalı-Gədəbəy mədəniyyətinə aid nümunələri araşdıran tədqiqatçı, Berlin şəhərində fəaliyyət göstərən Qafqaz Tədqiqatları İnstitutunun direktoru Nuridə Atəşi beynəlxalq elmi ictimaiyyətə müraciət edib. O, qeyd olunan mədəniyyətə aid nəzəri məsələlərin indiyə qədər beynəlxalq elm aləmində qeyri-obyektiv yazıldığını aşkar edib. Belə ki, N.Atəşi bu mədəniyyətə aid alman, ingilis, fransız və rus dillərində yazılmış tədqiqat əsərlərini müqayisə edərkən mövcud tarixşünaslıqda bir-biri ilə kəskin surətdə fərqlənən bir neçə elmi yanaşmanı müəyyənləşdirib. Tədqiqatçı eyni zamanda Rusiya, Almaniya, Fransa və digər ölkələrin arxiv və fondlarında indiyə qədər dünya elminə məlum olmayan bir neçə yeni kolleksiya nümunəsini də aşkar edib.**

Xocalı-Gədəbəy mədəniyyətinin indiyə qədər qərəzli, qeyri-obyektiv yazıldığını nəzərə alaraq N.Atəşi beynəlxalq elmi nəşrlərdə və beynəlxalq konfranslarda bu problemi dünya elmi ictimaiyyətinin diqqətinə çatdırıb. Eyni zamanda bunların yenidən tədqiq olunmasını da tələb edir. O, aprelin 25-29-da Vyana şəhərində keçirilmiş 10-cu Beynəlxalq Yaxın Şərq Arxeologiyası Konqresində də məruzə ilə çıxış edərək bu barədə beynəlxalq elmi ictimaiyyətə müraciət edib.

Xocalı-Gədəbəy mədəniyyəti nümunələri ilə zəngin olan Avropa muzeylərindən biri də Almaniyanın Berlin şəhərindəki Erkən və Qədim Tarix Muzeyidir. 2012-ci ildən bəri bu muzeyin fondunda geniş tədqiqatlar aparan Nuridə Atəşi bir neçə yeni kolleksiya aşkar etməklə bərabər son 180 ildən bu günə qədər onlarla alman elmi nəşrlərində, muzey kataloqlarında Xocalı-Gədəbəy mədəniyyəti, xüsusilə də Qarabağ tarixinin qeyri-obyektiv yazıldığını müəyyən edib. Həmçinin onlarla tarixi, coğrafi, arxeoloji və antropoloji nöqsanları aşkara çıxarıb.

Tədqiqatçı Xocalı-Gədəbəy mədəniyyəti nümunələrinin Almaniya muzeylərində yenidən tədqiqini, əsasən də Azərbaycan tarixinin və mədəniyyətinin obyektiv və müasir elmin tələbləri çərçivəsində araşdırılmasını təmin etmək məqsədilə beynəlxalq layihə hazırlayaraq həm Almaniyanın, həm də Azərbaycanın aidiyyəti qurumlarına təqdim edib.

Berlin Qafqaz Tədqiqatları İnstitutunun mətbuat şöbəsindən verilən məlumata görə, Xocalı- Gədəbəy mədəniyyəti tarixinin, xüsusilə də onun nəzəri və təcrübi problemlərinin elmi prinsiplər gözlənilməklə müasir dövrün tələbləri çərçivəsində yenidən doğru və dürüst tədqiq olunması təklifi beynəlxalq elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanıb və böyük dəstək qazanıb.

❑ M.MAHRIZLI

# Dondurmalardakı gizli təhlükə...

## Eyyub Hüseynov: "Azərbaycanda standartlara uyğun dondurma istehsal edən yalnız bir müəssisə var"

**Havaların isinməsi dondurma satışına da təkan verib. Bu gün ticarət şəbəkələrində, dükan-bazarlarda, restoranlarda müştərilərə geniş çeşiddə həm ölkədə, həm də xaricdə istehsal olunan dondurmalar təklif edilir. Böyükdən-kiçiyə hər kəsin sevimli qidası olan dondurmaların 30 qəpikdən tutmuş 50 manatadək olan müxtəlif çeşidləri satılır. Dondurmaların müxtəlif çeşiddə olması istehlakçılara rahat seçim imkanı versə də, seçim zamanı diqqətli olmaq lazımdır. Onların saxlanma müddəti, qablaşdırılması, tərkibi gözdən keçirilməlidir. Təəssüflə qeyd etməliyik ki, mağazalarda çeşid bolluğu olsa da, məhsulların əksəriyyəti aşağı keyfiyyət göstəricilərinə malikdir.**






"Nərimanov" metrosu yaxınlığında yerləşən dordurma satıcısı **Əkbər Əliyev** deyir ki, dondurma yumşaq olmamalıdır: "Dondurma çox rəngli və yumşaq olmamalıdır. Mən dondurmalara çox rəng vurmuram. Bəzən digər dondurma satanlar uşaqları cəlb etmək üçün dondurmalara qırmızı, yaşıl, sarı rənglər vururlar ki, bu zərərlidir. Rəngli dondurma yeyən uşaqların dilləri həmin rəngə boyanır. Bunu çox adam bilmir. Amma dondurmanın içindəki gizli təhlükə məhz həmin boyalardır".

Mütəxəssislər ağ və qəhvəyi rənglərdə olan dondurmalara üstünlük verilməsini məsləhət görürlər. Çünki bu tip dondurmaların tərkibində rəng qatqıları çox olmur. Məsələn, sarı rəngdə olan dondurmanın limonlu dondurma olduğunu deyə bilərlər. Ancaq alıcı bilməlidir ki, əgər dondurmanın rəngi sapsarıdırsa, orada rəngləndiricidən istifadə olunub. Çünki limon qatılan dondurma ağ rəngdən sarıya çox az çevrilə bilər. Amma tünd sarı ola bilməz. Dondurmalara vurulan bu sintetik rəngləndiricilər allergik xəstəliklərə yol açma və xərçəng riskini artırma potensialına sahibdir.

Qeyd edək ki, dondurmanın tərkibində protein, karbohidrat, yağ kimi maddələrlə birlikdə A, D, E, C, və B qrupu vitaminlər, həmçinin maqnezium, fosfor, sodium, potasium, dəmir və sink kimi minerallar olur ki, bunun da orqanizmə çox böyük xeyri var. Südlü dondurmalar 1 ay, meyvəli-giləmeyvəli, qaymaqlı və ətirli dondurmalar 1,5 ay, plombir dondurması 2 ay saxlanıla bilər. İstehsalında müasir texnologiyadan istifadə edildikdə, eləcə də məhsulun saxlama müddətinin artırılmasına zəmanət verən konservantlar, stabilizator-emulqatorlar və digər qida əlavələri standartlara uyğun olaraq əlavə edildikdə südlü, qaymaqlı və plombir dondurmaları mənfi 18 dərəcədən yüksək olmayan temperaturda ən çoxu 10 ay saxlanıla bilər. Saxlanma temperaturunun stabilliyi dondurmanın keyfiyyətini təmin edən əsas şərtlərdən biridir. Saxlanma temperaturunda dəyişikliklər olduqda bu məhsullarda mikrobioloji proseslər başlayır və bu cür məhsulların istehlakı insan orqanizmi üçün təhlükə mənbəyi hesab olunur. Xarici görünüşünə görə dondurmada kəsmiyəbənzər yağlılıq, qumabənzər köpüklülük əlamətləri olmamalıdır. Dondurmanın iyi və dadı bu növ məhsula xas olmalı, kənar iy və dad verməməlidir.

Keyfiyyətsiz dondurmalarda bağırsaq çöpləri qrupundan olan bakteriyalar, potagen mikroorqanizmlər, o cümlədən salmonella, stafikoklarin və s. orqanizm üçün təhlükəli bakteriyalar mövcud olur. Bu cür dondurmalar istehlak olunduqda insanlarda, xüsusilə uşaqlarda qida zəhərlənmələrinə və digər fəsadlara səbəb ola bilir.

### Maraqlıdır, ölkəmizdə keyfiyyətli dondurmalar varmı?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov Azərbaycanda yalnız bir dondurma istehsalının standartlara cavab verdiyini dedi:** "Azad İstehlakçılar Birliyinə mövsüm başlayanda dondurmaların və sərinləşdirici içkilərin keyfiyyəti, saxlanma müddəti ilə bağlı hər gün 6-7 telefon zəngi daxil olur. Qeyd edim ki, 2011-ci ildə ABŞ İnkişaf Agentliyi bizə müraciət etdi və Azərbaycan İstehlakçılarının qida təhlükəsizliyi nişanını təsis etməyi tövsiyə etdi, bizimlə treninq keçirdi. Belə bir nişan dövlət qeydiyyatına alındı. Bu nişan Azərbaycanda olan 40-a yaxın dondurma istehsalçıları arasından da yalnız birinə şamil olundu. Yəni Azərbaycanda standartlara uyğun dondurma istehsal edən müəssisə var. Bu müəssisə "İceland"dır". Qeyd edim ki, ölkədə keyfiyyətsiz, təhlükəli, istehlakçının tələbatını ödəməyən dondurmalar var. Xüsusən bu vəziyyət son dörd ayda hökumət tərəfindən biznesmenlərə yaradılmış kifayət qədər toxunulmazlıq səlahiyyəti dondurmaların keyfiyyətində pisliyə doğru dəyişiklik edib. Biznes qurumları onların toxunulmazlığından sui-istifadə edirlər".

**Qurum sədri istehlakçıları dondurma alarkən diqqətli olmağa çağırdı:** "İstehlakçılar dondurma seçərkən diqqətli olmalıdır. Dondurma süd məhsuludur. Mövcud standartlara görə, bitki yağının dondurmaya qarışdırılması qadağandır. Dondurmanın yağlılığını artırma, üçün yalnız kərə yağı qatıla bilər. Lakin bəzi dondurmaları dil üstünə qoyanda o qaymaq dadı vermək əvəzinə boğazda acılıq verir. Bu o deməkdir ki, onun tərkibinə artıq bitki yağları qarışdırıblar. Bəzən vaxtı keçmiş, mənşəyi bəlli olmayan bitki yağları, marqarinlər qarışdırılır. İstehlakçılar dondurma alarkən onun bükülməsinə diqqət etsinlər. Əgər onun bükülmə görünüşü dəyişibsə, bu o deməkdir ki, onun daşınması zamanı temperatur rejiminə məruz qalıb və yenidən dondurulub. Belə dondurma isə təhlükəlidir".

❑ Günel MANAFLI
Fotolar müəllifindir

# 24 yaşlı oğlanı döydülər, sonra yandırdılar - cinayətin şok təfərrüatları



**Bərdədə dəhşətli cinayət hadisəsi baş verib. Rayonun Piyadalar kəndinin sakini 24 yaşlı Bayramov Salman Tahir oğlu kəndin qəbiristanlığına yaxın sahədə tanımadığı insanlar tərəfindən döyülüb. Həmin şəxslər S.Bayramovu ölümcül döydükdən sonra onu avtomobilinə qoyub, benzin tökərək yandırıblar.**

Həmin kənddən olan bir nəfər qəbiristanlığa çatanda avtomobilin yandığını görüb, inilti səsini eşidib.

Həmkəndlisi Bayramovu maşından çıxararaq təcili tibbi yardım maşınının köməkliyi ilə xəstəxanaya çatdırıb.

Hadisənin başvermə səbəbi ilə bağlı ziddiyyətli xəbərlər yayılır. Bir çoxları 24 yaşlı gəncin borca görə yandırıldığını bildirsə də, hadisənin gerçək səbəbinin tamamilə başqa olduğu deyilir.

**Piyadalar kəndinin bələdiyyə sədri Baxşeyiş Abdullayev** azvision.az -a bildirib ki, hadisəni törədən şəxslərin axtarışı davam edir.

Onun sözlərinə görə, Salman Bayramov gecə saatlarında əmliyyat olunub, vəziyyəti ağır olaraq qalır:

"Bakıdan gələn professor ötən gün Salmanı əməliyyat etdi. Onun başında olan sümük qırıqları çıxarılıb. Hazırda da vəziyyəti ağır olaraq qalır. Reanimasiyadadır, hələ ki özünə gəlməyib".

**Bələdiyyə sədri hadisənin iki səbəbdən baş verə biləcəyini deyib:** "Salman kənddə qaz çəkmə işinə baxırdı. Çox bacarıqlı oğlandır. Hadisənin iki səbəbə görə törədildiyi bildirilir.

Birinci səbəb ondan ibarətdir ki, Salmanın xeyli mal-qarası olub. Həmin heyvanları satıb maşın almaq istəyirmiş. Onun mal-qaranı satdıqdan sonra üstündə 3-4 min manata yaxın pul olub. Ola bilsin ki, Salmanı pula görə bu hala salıblar. Salmanın valideynləri bu barədə heç nə danışmır.

Hadisənin baş verməsinə digər səbəb kimi Salmanın həddindən artıq internetə maraqlı olması göstərilir. Deyilənə görə, Salman internetdə çox adama mesajlar yazırmış. Bəlkə də hansısa bir qıza mesaj göndərib. Nəticədə bu hadisələr baş verib. Bildiyimizə görə, hadisəni bizim kəndin sakinləri törədib. Amma onların kimliyi bilinmir. Yəqin ki, polis həmin şəxsləri tutandan sonra hadisənin dəqiq səbəbləri ortaya çıxacaq".

Adının çəkilməsini istəməyən kənd sakinləri bildiriblər ki, hadisə qız üstündə baş verib. Belə ki, Salman Bayramov tanış olmaq məqsədilə bir qıza mesaj yazıb. Bundan xəbər tutan qızın qohumları onu cəzalandırmaq qərarına gəliblər. Hadisə də məhz bu səbəbdən baş verib.

Qeyd edək ki, faktla bağlı Bərdə Rayon Polis Şöbəsində araşdırma aparılır.



**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**
**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

**Kişilər!!! Axırıncı şans!!!**
**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**
--------------------------------------------
* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi
--------------------------------------------
Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Oğurluq edib qaçan gənci maşın vurub öldürdü

**Bakının Qaradağ rayonunda piyadanın ölümü ilə nəticələnən qəzası baş verib. APA-nın məlumatına görə, hadisə Salyan şossesində qeydə alınıb. Belə ki, 1988-ci il təvəllüdlü Cəfərov Nicat Tariyel oğlunun idarə etdiyi "Daewoo" markalı avtomobil yolu keçmək istəyən və hələlik kimliyi bilinməyən təxminən 30 yaşlarında olan kişini vurub. Vurulan piyada elə hadisə yerindəcə keçinib. Olay yerinə Qaradağ Rayon Polis İdarəsinin əməkdaşları gəliblər. Hadisə şahidlərinin bildirdiyinə görə, ölən şəxs yaxınlıqdakı kafedən oğurluq edib qaçan zaman maşın tərəfindən vurulub.**

Sürücünün ifadəsi alınması üçün polis idarəsinə, avtomobili isə evakuator vasitəsilə cərimə meydançasına aparılıb.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**
*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələ qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



## Ağdaşda 945 kiloqram keyfiyyətsiz at əti satmaq istəyənlər tutuldu

**Daxili işlər orqanları tərəfindən əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, insan orqanizminə ciddi zərər vuran, istifadəyə yararsız yeyinti məhsullarının satışının qarşısının alınması istiqamətində daha bir uğurlu əməliyyat tədbiri həyata keçirilib.**

Musavat.com-a verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Ağdaş rayonunda mənşəyi məlum olmayan ətin satılması barədə əməliyyat məlumatı daxil olub.

Həmin məlumat əsasında keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində rayon sakinləri - Cavanşir Əliyev, Rövşən Hüseynov və Orxan Hüseynov 945 kiloqram mənşəyi məlum olmayan əti satmaq istəyən zaman saxlanılıblar.

Araşdırmalarla məlum olub ki, saxlanılan şəxslər əldə etdikləri xəstə, ölü atların ətinin Bakı şəhərində satışını təşkil etmək istəyiblər.

Ekspert rəyi ilə müəyyən edilib ki, aşkarlanan at əti isitifadəyə tam yararsızdır və insan sağlamlığına ciddi təhlükə yarada bilər.

Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində araşdırmalar davam etdirilir.



## Zaqatalada avtomobil aptekə çırpıldı

**Balakən rayon sakininin idarə etdiyi avtomobil Zaqatalada aptekə çırpılıb. APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə mayın 8-dən 9-a keçən gecə Yevlax-Zaqatala-Gürcüstan sərhəd magistral yolunun 130-cu kilometrliyində, Zaqatala şəhəri ərazisindən keçən hissəsində baş verib.**

Balakən rayon sakini Tərlan Səiddin oğlu Vəliyev idarə etdiyi "Friora" markalı, 99-FD 62 dövlət nömrə nişanlı avtomobillə Balakən rayonu istiqamətində hərəkətdə olarkən qarşısına piyadanın çıxması səbəbində idarəetməni itirib. Nəticədə maşın yolun sol kənarında fəaliyyət göstərən, Azər adlı şəxsə məxsus aptek binasına girib. Qəza nəticəsində xəsarət alan olmasa da, aptek binasına və maşına ciddi ziyan dəyib.

Faktla bağlı Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat bölməsində araşdırma aparılır.

## Kişi keçmiş arvadını küçədə öldürdü

**Gəncə şəhər sakini Samirə Həsənova bədəninin müxtəlif nahiyələrinin çoxsaylı kəsilmiş-deşilmiş yaraları diaqnozu ilə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına gətirilib. Kəpəz TV-nin məlumatına görə, 23 yaşlı qadının keçmiş əri tərəfindən bıçaqlandığı məlum olub. Belə ki, 28 yaşlı Rövşən Ələsgərov eks-arvadını 31 saylı orta məktəbin yaxınlığında bıçaqlayıb.**

Həkimlərin müdaxiləsinə baxmayaraq, xəstənin həyatını xilas etmək mümkün olmayıb.

Onların 2 azyaşlı oğlu var imiş.

Rövşən Ələsgərov polis tərəfindən saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Facebook-dan imtina edin, xoşbəxt olun...

**Sirr deyil ki, sosial şəbəkələr artıq həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. Hətta asılılıq yaradıb desək, yanılmarıq. Düzdür, sosial şəbəkələrin vaxt aldığını deyib ondan qurtulmaq üçün heç bir internet funksiyası olmayan telefondan istifadə edənlər də var. Ancaq onlar da bir müddət sonra yenidən geri dönürlər.**

## Psixoloq: "Canlı ünsiyyət insanı daha xoşbəxt edir..."

Hətta bir çox insanlar canlı ünsiyyətdən çox, virtual ünsiyyətə önəm verirlər. Bu cür asılılıq yaradan sosial şəbəkələrdən biri və demək olar ki, ən əsası elə facebookdur. Hər gün milyonlarla insan bu sosial şəbəkədə saatlarla vaxt keçirir. Bu insanların çoxu burada keçirdikləri vaxta heyfsılənsələr də, bundan qurtula da bilmirlər. Sosial şəbəkələrin və internetin təsirini öyrənən tədqiqatçıların çoxu isə bildirir ki, internetdə "oturmağın" çox böyük ziyanı var. Xüsusilə də asılılıq inkişaf edir. İnternet olmayanda əsəbi vəziyyət yaranır. Sübuta yetirilib ki, bu saytlardan tez-tez istifadə etmək psixoloji sağlamlıq problemlərimiz arasında bağlılıqlar yaradır. Araşdırma zamanı məlum olub ki, facebookdakı dostlarının pozitiv statuslarını oxuyan və onların gülümsəyən, xoşbəxt fotolarını görən istifadəçilər daha çox duyğusal incikliyə məruz qalırlar.

İstifadəçilər arasında ikinci ən çox yayılan paxıllıq hissidir, xüsusilə onlar özlərinin şəkil və statuslarına gələn "like" və "şərh"lərin sayını müqayisə edəndə, bu, daha çox nəzərə çarpır. 30-40 yaşlarındakı yetkin insanlar arasında "facebook paxıllığı" daha çox qadınlar arasında yayılıb. Ailə xoşbəxtliyi və xarici cazibədarlığı əks etdirən postlara və şəkillərə baxan qadınlar həsəd hissindən əziyyət çəkirlər. Sonuncu olaraq "The Times" nəşri Kopenhagen Universitetinin tədqiqatına istinadən facebook sosial şəbəkəsindən istifadədən imtinanın insanları xoşbəxt etdiyini, həmçinin qəzəb və tənhalıq hissini azaltdığını yazır.




Araşdırmalar göstərib ki, insanlar sayta daxil olmanı və yeniləmələri yoxlamağı dayandırdıqdan bir həftə sonra öz həyatlarından daha məmnundurlar. Analitiklər qısa müddət ərzində əldə olunan belə dəyişiklikdən təəccüblənib. Onlar ümid edirlər ki, sosial medianın təsiri haqda məlumatlandırma insanlara həyatdan zövq almaqda kömək edəcək. Ekspertlər bildirir ki, facebook və başqa bu kimi belə saytlar "redaktə edilmiş" sonsuz həyat axınıdır ki, bu da bizim reallıq haqda təsəvvürümüzü təhrif edir. Kopenhagen Universiteti araşdırmada iştirak edən Danimarkanın 1095 sakinindən bir həftə ərzində sosial şəbəkənin istifadəsindən imtina etməyi xahiş edib. İştirakçılara sınaqdan əvvəl və sonra həyatdan məmnunluq hissini 1-10 ballıq şkala üzrə qiymətləndirmək təklif edilib. 7 gün ərzində orta göstərici 7,56-dan 8,12-dək artıb. İştirakçılar bildiriblər ki, daha çox sosial aktivlik göstərməyə başlayıblar, həmçinin özlərini əvvəlki kimi aqressiv və tənha hiss etmirlər.

Maraqlıdır, doğrudanmı vazkeçilməz sandığımız facebookdan imtina insanları xöşbəxt edə bilər?

**Psixoloq Dəyanət Rzayev facebookdan imtina etməyin doğrudan da xoşbəxtlik gətirdiyini dedi:** "Sosial şəbəkələrdən birdən-birə hamı imtina edə bilmir. Amma müəyyən bir qisim insanlar tədricən bundan imtina edir, köhnə telefonlara keçir. Sosial şəbəkəyə sərf etdiyi həmin zamanı öz yaxınlarına, təbiətə ayırır ki, bu da onu daha xoşbəxt edir. Təbii ki, müasir dövrdə həyatımızı sosial şəbəkəsiz təsəvvür etmək mümkün deyil. Amma bu, sosial şəbəkəyə kimin necə baxmasından asılıdır. Məsələn, mən sosial şəbəkəyə bir iş kimi baxıram. Kimin ki, orta, kiçik biznesi var, sosial şəbəkə vasitəsilə bunu inkişaf etdirə bilər. Buna görə də sosial şəbəkə çox yaxşı şeydir. Amma ünsiyyət baxımından canlı ünsiyyət insanı daha xoşbəxt edir. Ona görə də insanlar canlı ünsiyyətə üstünlük versələr, daha yaxşı olar. Sosial şəbəkə təbii ki, insanda asılılıq yaradır ki, buna da davranış vərdişləri deyirlər. Amma bu narkotik kimi bir vərdiş deyil və bundan imtina etmək olar. Ünsiyyət bacarıqdır və bu bacarıqdan uzun müddət istifadə etməyən insanların bu bacarıqları azalır. Amma bunu tez bərpa etmək olar".

"ComScore" şirkətinin araşdırmasına görə isə facebook sosial şəbəkəsindən ən çox israillilər istifadə edir. Şirkət müəyyən edib ki, bir israilli ay ərzində facebookda təxminən 11,8 saat vaxt keçirir. Bu siyahıda ikinci pillədə Rusiya yer tutub. Bir rus isə vaxtının təxminən 10,6 saatını facebookda keçirir. Üçüncü yerdə 10 saatla Argentina gəlir. Araşdırma nəticəsində o da məlum olub ki, türkiyəlilər vaxtlarının 9,3 saatını, çililər 8,7 saatını, meksikalılar isə 7 saatını facebookda keçirirlər. Təəccüblü olsa da, facebookun vətəni olan Amerika vətəndaşları sırada 6,3 saatla 13-cü yerdə qərar tutublar.

❑ **Günel MANAFLI**

# Bakıda 10 gün ərzində 4 beynəlxalq turnir

**Bakıda son 10 gün ərzində sayca üçüncü beynəlxalq turnir təşkil olunub. Növbəti beynəlxalq idman yarışı isə iyun ayında baş tutacaq.**

## Növbəti beynəlxalq idman yarışı isə iyun ayında baş tutacaq

May ayının ilk günündə Bakıda "Bakı Marafonu 2016" yarışı baş tutdu. Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən yarışa ölkə vətəndaşları ilə yanaşı, Azərbaycanda yaşayıb-çalışan 500-dək əcnəbi də qoşulmuşdu.

İspaniya, Fransa, Qazaxıstan, Ukrayna, Səudiyyə Ərəbistanı, İran, Hindistan, Çexiya və digər ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirliklərinin rəhbərləri və nümayəndələri, tələbələr, idmançılar, ictimai-siyasi xadimlər, ictimaiyyət nümayəndələri iştirakçılar arasında olub. Marafona, həmçinin Avstriya, Almaniya, İspaniya, Fransa, Rusiya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Keniya və digər ölkələrdən də qoşulanlar olub.

"Küləyə qalib gəl!" şüarı ilə keçirilən marafonda kişilər arasında finişə birinci Namiq Əsədov, Gürcüstan vətəndaşı Georqi Dameniya ikinci və Tural Sadıxlı isə üçüncü çatıb. Qadınlar arasında Rahidə Aslanova birinci, Nataşa Pitersen (Böyük Britaniya) ikinci, Rəqsanə Rəcəbli isə finişi üçüncü başa vurub. Birinci yerin qalibi 3 min, ikinci yerin qalibi 2 min, üçüncü yerin qalibi isə min manat məbləğində mükafat və hədiyyələrlə təltif olunub.



Növbəti beynəlxalq turnir isə may ayının 4-də start götürdü. "Tour d'Azerbaidjan-2016" beynəlxalq velosiped turu Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edildi. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi ilə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən təşkil olunan turnir mayın 8-də yekunlaşdı.

Yarışda 18 ölkədən 21 komanda mübarizə apardı. Onlardan 6-sı peşəkar kontinental, "Synergy Baku" da daxil olmaqla 14-ü kontinental, 1-i isə milli komanda idi. 5 mərhələdən ibarət olan veloturda idmançılar Bakı və Sumqayıt şəhərlərinin, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonlarının ərazilərindən keçməklə, 790 km-dən çox məsafə qət etdilər.

Mayın 5-də Bakı Olimpiya Stadionunda 17 yaşadək futbolçular arasında Avropa çempionatının təntənəli açılış mərasimi keçirilib.

"UEFA U-17" çempionatının Azərbaycanda təşkil olunması barədə qərar UEFA İcraiyyə Komitəsinin 2012-ci il martın 20-də Türkiyənin İstanbul şəhərində keçirilmiş iclasında qəbul olunub.

On yeddi yaşadək futbolçular arasında "UEFA U-17" Avropa çempionatının oyunları Bakıda yerləşən 4 stadionda keçiriləcək. Açılış oyunu, yarımfinal qarşılaşmaları və final matçı Bakı Olimpiya Stadionunda təşkil olunacaq. Suraxanı qəsəbəsindəki "Qarabağ" stadionunda yalnız qrup oyunları keçiriləcək. Burada 6 qarşılaşma oynanılacaq. "8-ci Kilometr" stadionunda 8 (2-si 1/4 final qarşılaşması olmaqla), "Dalğa Arena"da 8 (2-si 1/4 final qarşılaşması olmaqla), Bakı Olimpiya Stadionunda isə 9 oyun təşkil olunacaq.

Hazırda davam edən daha bir beynəlxalq turnir isə mayın 6-da başlayıb. Bakıda keçirilən cüdo üzrə "Böyük dəbilqə" turniri Heydər Əliyev adına İdman Sarayında keçirilir. Yarış Heydər Əliyevin xatirəsinə həsr olunub. Üç gün davam edəcək turnirdə 76 ölkədən 449 cüdoçu (280 kişi, 169 qadın) qüvvəsini sınayacaq.

Beynəlxalq yarış 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunlarına lisenziya baxımından da önəmlidir. Ümumi mükafat fondu 154 min dollar olan yarışda hər çəki dərəcəsində qalib gələn cüdoçular qızıl medalla yanaşı, 5000 dollar pul mükafatına və 500 lisenziya xalına sahib olacaqlar. Finalçılar gümüş medal, 300 lisenziya xalı və 3000 dollar, üçüncü yeri tutan iki cüdoçu isə bürünc medal, hərəyə 200 lisenziya xalı və 1500 dollar qazanacaqlar.

"Böyük dəbilqə" Azərbaycan Cüdo Federasiyasının yeni rəhbərliyinin təşkilatçılığı ilə ilk böyük turnir olacaq. Azərbaycanı bu turnirdə 27 kişi və 3 qadın cüdoçu təmsil edir.

**İyun ayında keçiriləcək "Formula-1" yarışı isə bu beynəlxalq turnirlər arasında ən önəmlisidir.**

**Bakıda keçiriləcək "Formula-1" yarışının startı iyun ayının 19-da baş tutacaq.**

❑ **Musavat.com**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 100 (6421) 10 may 2016*




## 8 nəfəri döyüb xəstəxanalıq etdi, sonra da gül alıb xəstəxanaya getdi

**İzmir nəqliyyatında baş verən kiçik bir anlaşılmazlıq böyük davaya çevrilib. 4 qat dünya, 9 dəfə Türkiyə çempionu olan kik-boksçu Cəsur Turğay 8 nəfəri döyərək, xəstəxanaya düşmələrinə səbəb olub. Hadisə baş verən zaman C.Turğay maşınını sağ tərəfə çəkərək alış-veriş torbalarını baqaja qoymaq istəyib. Bu zaman Turğayın yanında maşın dayanıb, onun içindən beş nəfər düşərək, çempionla mübahisəyə başlayıb. Bu şəxslərin sərxoş olması yayılan məlumatlar sırasındadır. Turğay gələnlərin hər birini tək yumruqla yerə yıxıb və zədələnmələrinə səbəb olub. Onlardan bir neçəsi xəstəxanaya aparılıb və müalicə olunublar. Baş verən xoşagəlməz hadisədən sonra kik-boksçu döydüyü adamlara xəstəxanada baş çəkib və gedəndə bir gül də alıb. Səmimi bir atmosferdə baş tutan ziyarət zamanı həmin şəxslər də Turğaydan üzr istəyiblər. Çempion baş tutmuş bu görüş haqda aşağıdakıları deyib: “Onlara ”keçmiş olsun" diləklərimi çatdırdım. Onlar da məndən üzr istədilər. Sərxoş olduqlarını, bu səbəbdən də səhv etdiklərini bildirdilər. Hamısı ilə dostlaşdıq".**

## Çox düşünən insan tez arıqlayır

**Alimlər krossvord həll etməyin insanı arıqlatdığını sübuta yetirib. Tədqiqat müəllifləri bunu artıq çəki problemi olan şəxslərə xoş xəbər kimi təqdim edir. Onların bildirdiyinə görə, arıqlamaq istəyən şəxsin fiziki işə həvəsi yoxdursa, o, özünü zehni əməyə verməlidir: krossvord həll etməli, pazl yığmalı və ya məntiqi tapşırıqlarla məşğul olmalıdır.**

Məsələ ondadır ki, intellektual işin öhdəsindən gəlmək üçün beyinə daha çox kalori tələb olunur. Beynin bu cür fəaliyyəti zamanı orada milyonlarla əsəb impulsu yaranır və bunun üçün böyük enerji tələb olunur. Nəticədə bu, insan orqanizminin kalori "xərcləməsinə" aparıb çıxarır.



## Bu səhər yeməyini yeməyin!

**Şimali İngiltərədəki “Bear Grill” kafesinin rəhbərliyi qəribə bir səhər yeməyi menyusu hazırlayıb. Bu yeməyin ümumi enerji tutumu 8 min kilokaloridir. Amma bu səhər yeməyini dadmaq istəyənlər daha sonra səhhətlərində yarana biləcək hər hansı problemə görə kafe sahibindən narazı olmayacaqları ilə bağlı ərizə yazmalıdır. “Hibernator” adı verilən səhər yeməyi menyusuna aşağıdakılar aiddir: 4 yumurtadan ibarət qayğanaq, 8 sosiska, bekon, kartofdan hazırlanmış kotlet, 4 yumurtadan və pendirdən hazırlanmış omlet, 4 vafli, 4 ədəd qızardılmış çörək, pudinq. Bundan başqa, səhər yeməyinə pomidor, göbələk, kartof fri də daxildir. Müəssisəsinin rəhbəri Mark Uaynder bildirib ki, artıq 20 nəfər ziyarətçi bu səhər yeməyindən dadıb, amma axıra çatdıra bilməyib. İngilis iş adamı deyib ki, kiminsə “Hibernatoru” sona qədər yeyəcəyinə ümid etmir. Bu nəhəng səhər yeməyinin qiyməti isə 19.95 funtdur. Kafedə həmçinin Hibernatorun uşaqlar üçün olan mini versiyasını da hazırlayıblar.**





## Uşaq bilib qucağına aldı, 46 yaşlı evli kişi çıxdı

**İngiltərənin Lordlar Palatasının üzvü Mişel Mon Vyetnamda qucağına aldığı bir uşaqla şəkil çəkdirib. Amma bu balaca adam əslində uşaq deyilmiş. 44 yaşlı qadın Vyetnamda keçirilən konfrans zamanı ona gül verən balacaya diqqət göstərib və qucağına alıb. Ancaq Monun qucağına uşaq deyib aldığı şəxs 46 yaşındakı evli bir kişi olub. Kişinin həyat yoldaşı iş qadınına “onu yerə qoy, mən onun həyat yoldaşıyam” deyib. Mon twitter vasitəsilə çəkdiyi bu fotonu paylaşıb və altında bunları yazıb: “Ən utancverici an. Onu 6 yaşında bir uşaq hesab etdim, amma böyük adammış’.**

Mişel Mon İngiltərənin “Daily Mail” qəzetinə açıqlamasında isə bildirib ki, adam vəziyyətdən razı idi və salondakı hər kəs də qəhqəhə ilə gülürdü. İş qadını “Bir şeyin yanlış olduğunu düşünmüşdüm. Dişləri nikotindən saralmışdı” deyib.




**QOÇ** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, xüsusən də baş nahiyənizə ciddi fikir verməlisiniz. Digər işləri təxirə salmaq da olar.

**BUĞA** - Ümumi əhvalınızda xoş məqamlar bol olacaq. Ələlxüsus da saat 15-dən sonra bəzi cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı sevgiyə həsr edin. Ulduzlar uzaq səfərə çıxmanızın əleyhinədir.

**ƏKİZLƏR** - Qarşınızda uğurlu bir gün durur. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Nahardan sonra uzaq yola çıxmaq olar.

**XƏRÇƏNG** - Xırda-para işlər başınızı qatsa da, şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin, ağır fiziki işlərdən yayınmağa çalışın.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə ətrafdakılarla mülayim olmağa üstünlük verin. Əgər ruhən sizə yaxın olan insanlara baş çəksəniz, böyük savab qazanmış olarsınız. Bütün hallarda bu gün bədbin düşüncələrdən azad olun.

**QIZ** - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Bu səbəbdən də yalnız özünüzə aid işlərlə məşğul olun.

**TƏRƏZİ** - Planetiniz Veneranın “hakimiyyətdə” olması sizi daha enerjili edəcək. Amma səhhətlə bağlı problemlərinizi həll etməlisiniz. Çünki bu amil vacib planlarınızı poza bilər. Görüşləri axşama salın.

**ƏQRƏB** - Saat 14-ə qədər neytrallıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir. Riskdən qorxmayın.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqlardan sevindirici xəbər də alasınız. Hər halda, gün ərzində ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə ehtiyatlı olmalısınız.

**OĞLAQ** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Əgər təşəbbüskarlığı əlinizdə saxlasanız, hədəfə mütləq çatacaqsınız.

**SUTÖKƏN** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Ruhi tarazlığınızı bərpa etmək üçün ziyarətgahlara baş çəkmək olar.

**BALIQLAR** - Bütün vacib işlərinizi günün birinci yarısında yekunlaşdırın. Çünki saat 14-dən sonra daxili süstlüyünüz yüksələ bilər. Axşama doğru maraqlı insanlarla rastlaşacaqsınız. Bu gün borc almayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 429.6 milyon dollar udub, amma üzə çıxmır




**Amerikanın Nyu-Cersi ştatının sakini “Povervall” lotereyasının cek-potunda 429,6 milyon dollar udub. Lenta.ru saytının xəbərinə görə, qalib hələ ki pulların arxasınca gəlməyib. Adətən belə böyük məbləğdə pul udanlar bir neçə ay özlərini gizlədirlər, medianın və ictimaiyyətin maraq dolu baxışlarından qaçırlar. Bu, ABŞ tarixində miqyasına görə doqquzuncu uduş sayılır. Rekord cek-pot 2016-cı ilin yanvarında, 1.6 milyard dollar məbləğində qazanılıb.**

Bu il aprelin əvvəlində Böyük Britaniya sakini milli lotereya tarixində ən böyük cek-potu udub. Bu, 35.1 milyon funt sterlinq olub.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750